QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 205 (5677) **30 oktyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilir

## *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qax və Şəki rayonlarına səfər ediblər*

Səh 2



11

**Suren Sarkisyan: "Ermənistan ABŞ-ın maraqlarında prioritet rol oynamır"**



14

**Əli Kərimlinin "dişi" Qurban Məmmədova "bata" bilmədi**



5

**Dmitri Savelyev: "Bakı forumu siyasətçilər və ekspertlər üçün ideya mənbəyidir"**



# Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilir

## *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qax və Şəki rayonlarına səfər ediblər*

***Oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qax rayonuna səfərə gəliblər. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin Qax şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular.***

Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev rayonda görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi. Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 28-də Kənd Təsərrüfatı Nazirliyinin yenidən qurulan Qax Damazlıq İpəkçilik Stansiyasının açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım stansiyanın rəmzi açılışını bildirən lenti kəsdilər. Kənd təsərrüfatı naziri İnam Kərimov Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya burada yaradılan şərait barədə məlumat verdi.



Bildirildi ki, Qax Damazlıq İpəkçilik Stansiyasının əsası 1973-cü ildə qoyulub. Maliyyə çətinliyi səbəbindən stansiya 1998-ci ildən fəaliyyətini dayandırmışdı. Nazirlər Kabinetinin 2015-ci ildə qəbul etdiyi qərarla stansiya Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki qurumların siyahısına daxil edilib. Prezident İlham Əliyevin ötən il imzaladığı "Azərbaycan Respublikasında ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncama uyğun olaraq, Qax Damazlıq İpəkçilik Stansiyasının bərpası, əlavə istehsal sahələrinin yaradılması və müasir avadanlıqla təchiz olunması məqsədilə Prezidentin ehtiyat fondundan Kənd Təsərrüfatı Nazirliyinə 4,5 milyon manat vəsait ayrılıb. Ötən ildən başlayaraq stansiyada əsaslı yenidənqurma işləri həyata keçirilib. Daha sonra Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya müəssisədə süni yemin yaradılması istiqamətində davam etdirilən tədqiqatlar haqqında məlumat verildi.

Oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun açılışında iştirak edib.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər haqqında dövlətimizin başçısına məlumat verdi. Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun əsaslı şəkildə yenidən qurulması Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən həyata keçirilib. Yol 13 məntəqəni əhatə etməklə burada yaşayan 4 min nəfər əhalinin rahat gediş-gəlişini təmin edəcək, nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətində mühüm rol oynayacaq. Daha sonra Prezident İlham Əliyev Qax-Qıpçaq-Ağyazı avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.

Oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Ulu Aqro" MMC-nin Qax Aqroparkının açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə Qax Aqroparkında görülən meliorativ tədbirlər, həmçinin Əyriçay su anbarı magistral kanallarının planı barədə dövlətimizin başçısına məlumat verdi.

Daha sonra Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Dövlətimizin başçısı görüşdə çıxış edərək bildirib ki, Aqroparkların yaradılması artıq ölkəmizdə dövlət proqramıdır və bu proses geniş vüsət alıb. Bu ilin sonuna qədər 13 aqroparkın fəaliyyətə başlaması nəzərdə tutulur. Onlardan biri də Qax aqroparkıdır:

***Ardı Səh. 3***

# Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilir

## *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qax və Şəki rayonlarına səfər ediblər*



Əvvəli Səh. 2

"Ümumiyyətlə, 45 aqroparkın yaradılması nəzərdə tutulur və bu aqroparklarda işləyən insanların sayı minlərlə, on minlərlə olacaqdır. Təkcə Qax aqroparkında 100 daimi və 100 mövsümi iş yeri yaradılır. 45 aqroparkın ümumi sahəsi 192 min hektardır və onlardan 28-i bitkiçilik, 17-si isə heyvandarlıq arqoparklarıdır. Beləliklə, bu dövlət proqramlarının icrası nəticəsində ölkə iqtisadiyyatına böyük xeyir gələcək, məşğulluq artacaq, insanlar işlə təmin olunacaqlar, yaxşı əməkhaqqı alacaqlar və ölkəmiz idxaldan asılılığı aradan qaldıracaqdır.

Qax aqroparkının yaradılmasına dövlət xətti ilə 13 milyon manat investisiya qoyulub. Bütün infrastruktur dövlət xətti ilə yaradılıb. Bundan əlavə, yeni açdığım kənd yolu da bu aqroparkın fəaliyyətinə əlavə dəstək olacaq. Bu kənd yolunun uzunluğu 44 kilometrdir və bölgələrdə salınan ən uzun kənd yollarından biridir. Ümumiyyətlə, Qax rayonunun inkişafı üçün bu yolun böyük əhəmiyyəti var. Dövlət, eyni zamanda, aqroparkın yaradılmasına güzəştli şərtlərlə kredit şəklində 2 milyon manat pul ayırıb və qalan işləri özəl sektor görüb. Dövlət-özəl sektor tərəfdaşlığı Qax aqroparkının timsalında əyani şəkildə özünü göstərir. Beləliklə, bizim siyasətimiz burada öz əksini tapır.

Azərbaycanın, xüsusilə bu ərazinin çox gözəl təbii şəraiti, gözəl iqlimi, münbit torpağı var. Sadəcə olaraq, biz bu imkanlardan böyük səmərə ilə istifadə etməliyik. Burada müasir suvarma sistemlərinin, ilk növbədə, pivot, damcılama sistemlərinin quraşdırılması, əlbəttə ki, məhsuldarlığın artırılmasına xidmət göstərəcək.



İki min hektar ərazisi olan aqroparkın böyük hissəsi müasir suvarma sistemləri altındadır və burada salınan gözəl meyvə bağları - badam bağları artıq reallıqdır. Hələ bir il bundan əvvəl buralar boş torpaq idi, heç nə bitmirdi, heç bir iş görülmürdü. İndi baxanda göz oxşayır. Qarlı dağlar və gözəl meşə zolağı, o meşə zolağı ki, bar gətirəcək və Azərbaycan vətəndaşları bundan istifadə edəcəklər. Kənd təsərrüfatının inkişafı ilə bağlı çox ciddi addımlar atılır. Bu addımlar göstəricilərdə də özünü büruzə verir. Bu ilin doqquz ayında kənd təsərrüfatında 4,3 faiz artım var. Kənd təsərrüfatının bütün istiqamətləri üzrə planlı şəkildə iş aparılır və beləliklə, ənənəvi kənd təsərrüfatı sahələri - pambıqçılıq, üzümçülük, tütünçülük, fındıqçılıq, baramaçılıq, tərəvəzçilik və digər sahələr bərpa edilir. Biz elə etməliyik ki, Azərbaycan bütün ərzaq məhsulları ilə öz tələbatını özü ödəsin. Biz bu hədəfə yaxınlaşırıq."

Sonra Prezident İlham Əliyev aqroparkın suvarma sisteminin işə salınmasını bildirən düyməni basdı və əkin sahəsinə baxdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 28-də Qax şəhərində "Ulu Yurd" Məhdud Məsuliyyətli Cəmiyyətinin "Yurd Hotel" mehmanxanasının açılışında iştirak ediblər. Dövlətimizin başçısı otelin rəmzi açılışını bildirən lenti kəsdi.

"Ulu Yurd" Məhdud Məsuliyyətli Cəmiyyətinin rəhbəri Cuma Əhmədzadə burada yaradılan şərait barədə məlumat verdi. Bildirildi ki, mehmanxananın inşasına 2017-ci ilin sentyabrında başlanılıb. Yüksək keyfiyyət və zövqlə görülən tikinti işləri bu ilin sentyabrında başa çatdırılıb. Qax şəhərindən 8,5 kilometr məsafədə yerləşən mehmanxana, İlisu kəndində ümumi sahəsi 3,3 hektar olan "Yaşıl Park" istirahət mərkəzinin ərazisində inşa edilib. Kompleksin tikinti sahəsi 2100 kvadratmetrdir. Yüz yerlik, üçmərtəbəli mehmanxana binasında müxtəlif kateqoriyalara uyğun 48 otaq var. Otaqlardan 45-i standart, 3-ü ailəvidir. Burada, eyni zamanda, VIP kottec də yaradılıb. Mehmanxananın otaqlarında müştərilərin rahatlığı üçün ən xırda detallar da nəzərə alınıb. Qonaqların asudə vaxtlarının təşkili bu mehmanxana kompleksinin yaradılmasında əsas meyarlardan biri kimi seçilib.

Oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki şəhərinə səfərə gəliblər. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsi önünə gül dəstələri qoydular. Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov rayonda görülən işlər haqqında dövlətimizin başçısına və birinci xanıma məlumat verdi. Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

Oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki şəhərində inşa olunan Heydər Əliyev Mərkəzinin açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

Şəkidə orijinal layihə əsasında yeni tikilən Heydər Əliyev Mərkəzi Ümummilli Liderin xatirəsinə dərin ehtiramın parlaq nümunəsidir. Mərkəzdə Ulu Öndərin mənalı həyatı və çoxşaxəli fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar yer alıb.



Ardı Səh. 4

# Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilir

## *Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qax və Şəki rayonlarına səfər ediblər*

Əvvəli Səh. 3





Burada dünyanın görkəmli dahi şəxsiyyətlərindən olan Heydər Əliyevin Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, bu böyük insanın həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, iqtisadiyyatın ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm qoyması, qüdrətli ordu quruculuğu istiqamətində görülən mühüm tədbirləri əks etdirən foto, kitab və digər vəsaitlərə geniş yer verilib. Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin təbliği, gələcəkdə Azərbaycan vətəndaşlarının dünyada gedən müasir proseslər çərçivəsində öz vətəni, milləti və xalqının taleyi ilə bağlı genişmiqyaslı layihələrdə iştirakının təmin olunması, onların arzu və niyyətlərini gerçəkləşdirmək əzminin reallaşması baxımından mühüm əhəmiyyət daşıyan Heydər Əliyev Mərkəzinin inşası Azərbaycanın müasir həyatını əks etdirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 29-da Şəki-Kiş avtomobil yolunun açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına və xanımına yolun texniki göstəriciləri barədə məlumat verdi.

Bildirildi ki, yolun uzunluğu 7,2 kilometrdir. Şəki-Kiş avtomobil yolu uzun müddət təmir olunmadığı üçün hərəkət hissəsi sıradan çıxmışdı. Bu isə avtonəqliyyat vasitələrinin hərəkətində problemlər yaradırdı. On yeddi min nəfər əhalinin yaşadığı iki yaşayış məntəqəsini birləşdirən Şəki-Kiş avtomobil yolunun yenidən qurulması Azərbaycan Prezidentinin Sərəncamına əsasən həyata keçirilib. Görülən işlər nəticəsində yol iki hərəkət zolaqlı olmaqla 4-cü texniki dərəcəyə uyğun yenidən qurulub. Layihəyə uyğun olaraq 7 metr enində yol əsası və 2 metr enində çiyinlər də daxil olmaqla yeni salınan yol yatağının eni 12 metrdir. Yol boyunca müxtəlif diametrli suötürücü borular tikilib, zəruri yerlərdə yol nişanları quraşdırılıb, yol-cizgi və yolgöstərici xətlər çəkilib, avtobus dayanacaqları tikilib. Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi. Sonda xatirə şəkli çəkdirildi.

Oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki "ASAN Həyat" kompleksinin açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.

Altı il bundan əvvəl - 2012-ci il iyulun 13-də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradıldı və onun tabeliyində olan "ASAN xidmət" mərkəzləri fəaliyyətə başladı. Bu qurumun yaradılmasında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək "ASAN xidmət" mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Həmin ildən başlayaraq Bakının bir neçə rayonunda "ASAN xidmət" mərkəzləri sakinlərin istifadəsinə verildi. Daha sonra bu proses regionları da əhatə etməyə başladı. Hazırda bu mərkəzlərə daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olanlar üstünlük təşkil edir. Bütün bunlar dövlət qulluqçusu-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir. Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəki "ASAN Həyat" kompleksinin əməkdaşları ilə görüşdülər. Dövlətimizin başçısı görüşdə çıxış edib.

Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, "ASAN" Azərbaycanın milli brendidir. Biz öz intellektual məhsulumuzu vətəndaşlara təqdim edirik, eyni zamanda, dünyaya göstəririk ki, Azərbaycan bu sahədə də liderdir. Dövlət başçısı qeyd edib ki, "ASAN xidmət" mərkəzlərinin yaradılması ölkəmizdə ictimai xidmətlər sahəsində bir inqilab idi: "Çünki biz hamımız yaxşı bilirik ki, bu sahə ən çox narazılıq doğuran sahə idi. Bu gün Azərbaycanda fəaliyyət göstərən 15 mərkəzdə, - bu, 15-ci mərkəzdir, - ən yüksək xidmət göstərilir və bu mərkəzlərdə bürokratiya, rüşvətxorluq, korrupsiya, süründürməçilik sıfır səviyyəsindədir. Təsadüfi deyil ki, vətəndaşların "ASAN xidmət" fəaliyyətinə verdiyi qiymət də 100 faiz müsbətdir, bəyənmə əmsalı 100 faizə yaxındır.

Bu ay İmişli "ASAN Həyat" kompleksinin açılışında olarkən, onu işə salarkən lövhədə gördüm ki, 24 milyondan çox müraciət edilib. Ancaq bu gün Şəki kompleksini işə salarkən lövhədə gördüm ki, müraciətlərin sayı artıq 25 milyona yaxınlaşıb. Bu, onu göstərir ki, qısa müddət ərzində çox sayda müraciət olub və biz artıq 25 milyon rəqəminə yaxınıq. Güman edirəm ki, bir neçə gündən sonra biz bu rəqəmə də çatacağıq. Növbəti illərdə, xüsusilə gələn il ən azı 5 mərkəz yaradılacaq. Beləliklə, bölgələrdə "ASAN xidmət" mərkəzlərinin sayı 15-ə çatacaq və Azərbaycan vətəndaşlarına 5-i Bakıda olmaqla 20 mərkəz xidmət göstərəcək.

Bu mərkəzlərin yaradılmasında Azərbaycanın uğurlu siyasəti öz əksini tapır. "ASAN xidmət" mədəni xidmətdir, "ASAN xidmət" ən yüksək səviyyəli innovativ metodları vətəndaşlara təqdim edən mərkəzdir. Korrupsiya, rüşvətxorluqla bağlı apardığımız mübarizə "ASAN xidmət" mərkəzlərində tam bərqərar olub və bu, bütün dövlət qurumları üçün nümunədir, örnəkdir. Mən öz çıxışlarımda dəfələrlə demişəm ki, Azərbaycanda bütün sahələrdə şəffaflıq, dürüstlük "ASAN xidmət" mərkəzlərinin səviyyəsinə qalxmalıdır və biz tədricən bu hədəfə də çatırıq." Sonda xatirə şəkli çəkdirildi.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şəki şəhərində qarışıq tipli uşaq evi üçün inşa olunan yeni binanın açılışında iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım uşaq evinin rəmzi açılışını bildirən lenti kəsiblər. Bildirildi ki, uşaq evi bütün yaş qrupları üzrə 80 yerlikdir. Şəki rayonu ilə yanaşı, ətraf bölgələri də əhatə edən uşaq evində hazırda valideyn himayəsindən məhrum olan 3 yaşdan 20 yaşadək 60 nəfər məskunlaşıb. Binada oğlanlar və qızlar üçün ayrı bölmələrdə yerləşən, zəruri inventar və avadanlıqla təchiz edilən 2, 3 və 4 nəfərlik yataq otaqları, dayə otaqları, kitabxana, kompüter otaqları, musiqi otağı, emalatxana, idman zalı, həkim və tibb bacısı otaqları, uşaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət otağı, mətbəx, yeməkxana və camaşırxana var.

Oktyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəkiyə səfərləri çərçivəsində "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzinin açılışında iştirak ediblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.

"ASAN xidmət"in tabeliyində olan "ABAD" - Ailə Biznesinə Asan Dəstək publik hüquqi şəxs Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı Fərmana əsasən yaradılıb. Əsas məqsədi ölkənin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını, kiçik və orta sahibkarlığın inkişafını, əhalinin məşğulluq səviyyəsinin artırılmasını təmin etmək olan "ABAD" rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək verir, sosialyönümlü layihələrin həyata keçirilməsində birbaşa iştirak edir. "ABAD" öz fəaliyyətini regional mərkəzlər vasitəsilə qurur. Masallı, Balakən, Quba rayonlarında artıq belə mərkəzlər fəaliyyətə başlayıb. Dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dəstək verən layihə çərçivəsində "ABAD"çı ailələrinə mürəbbə, cem, ət və süd məhsullarının istehsalı üçün xüsusi konteynerlər verilib. İndiyə qədər dekorativ-tətbiqi sənətlə məşğul olan 100-dən çox və kənd təsərrüfatında çalışan onlarla ailəyə dəstək verilib. Satışları təşkil etmək məqsədilə "ABAD" paytaxt Bakının müxtəlif yerlərində, həmçinin Şamaxı rayonunun Dəmirçi kəndində mərkəzlər açıb.

Azərbaycan Respublikası Prezidentinin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev məlumat verdilər ki, "ABAD" publik hüquqi şəxsin Şəki Keramika və Tətbiqi Sənət Mərkəzinin binası XIX əsrin axırlarında tikilib və kazarma kimi istifadə olunub. Baxımsız və qəzalı şəraitdə olan həmin bina "Paşa Holdinq"in dəstəyi ilə yenidən qurulub. Mərkəz müasir avadanlıqla təchiz edilib. Bildirildi ki, Şəki Keramika və Tətbiqi Sənət Mərkəzində sənətkarların istehsal etdikləri məhsulların satışı da təşkil olunacaq. Ümumilikdə burada 40-dək vətəndaş daimi işlə təmin ediləcək.

# Dmitri Savelyev: "Bakı forumu siyasətçilər və ekspertlər üçün ideya mənbəyidir"

***Planetimizin gələcəyi insanın humanitar məsələlərə baxışından, sivilizasiyalararası, mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafından asılıdır. Məhz bu səbəbdən müasir dünyanın ən yaxşı intellekt sahibləri bu gün bəşəriyyəti narahat edən qloballar məsələləri müzakirə etmək, bununla bağlı suallara cavab tapmaq məqsədilə VI Bakı Beynəlxalq Humanitar Forumuna toplaşmışdı. Forumun iştirakçısı, Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitri Savelyev forumdan aldığı təəssüratlarını AZƏRTAC-ın müxbiri ilə bölüşüb.***

*-Dmitri İnavoviç siz Bakı forumunun işində üçüncü dəfə iştirak etdiniz. Sizin fikrinizcə, bu tədbirin bəşəriyyət üçün əhəmiyyəti nədən ibarətdir?*

-Mən görürəm ki, Bakı Forumu həm iştirakçıların sayı baxımından, həm də öz təsir gücünə görə ilbəil genişlənir. Həqiqətən, buraya dünyanın hər yerindən ən nüfuzlu insanlar: siyasətçilər, alimlər və ekspertlər gəlirlər. Buna görə də Bakı forumu həm humanitar sahədə mövcud proseslərin müzakirə edilməsi üçün səmərəli platforma kimi özünü tamamilə doğruldur, həm də onun ictimai rəyi formalaşdıran və dünyanın aparıcı siyasi dairələrinə translyasiya edən forumlar sırasına daxil olmaq üçün hər cür şansı var.

*-VI Bakı Beynəlxalq Humanitar Forumu "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusuna həsr edilmişdi. Bu mövzu müasir dünya üçün nə dərəcədə əhəmiyyətlidir?*

-Dünyanı vahid məkan kimi, bütün bəşəriyyəti isə vahid cəmiyyət kimi görmək arzusu çox qədim tarixə malikdir. Lakin bu gün planetimizin qarşısında çoxsaylı çağırışlar var: yoxsulluq və aclıq problemi, iqlim dəyişikliklərinə qarşı mübarizə, enerji və su təchizatı mənbələrinin təmin edilməsi - bütün bu məsələləri əlbir şəkildə həll etməliyik. Biz yeni geosiyasi və texnoloji reallıqda yaşayırıq. Bu reallıq siyasətin, təbiət elmlərinin və fundamental dəyərlərin qovuşuğunda müzakirə edilməlidir. Bakı forumu çıxış yolları axtaran siyasətçi və ekspertlər üçün məhz belə ideya mənbəyidir, çünki konkret məsələlər və onların həlli yolları dialoqun gedişində tapılmalıdır.

*-Mədəniyyətlərarası və sivilizasiyalararası dialoq yaratmalı olan Bakı prosesinin banisi nəyə görə məhz Azərbaycan olub?*

-Humanitar forum Azərbaycanın ən yüksək beynəlxalq statusunun və ölkə rəhbərlərinə ehtiramın göstəricisidir. Bu xarakterli qlobal tədbirləri məhz ölkə rəhbərləri təşkil edir. Dünyada bu cür problemləri ifadə etməyə və mühüm sivilizasiya məsələləri barəsində öz fikirlərini söyləmək üçün aparıcı ekspertləri dəvət etməyə imkanı olan dövlətlərin sayı o qədər də çox deyil. Azərbaycanda daxili humanitar balansın nümunəvi modeli yaradılıb. Bu halda dövlət sosial, siyasi, mədəni, ekoloji və dini sahələrin dəstəklənməsini təmin edir. Prezident İlham Heydər oğlu Əliyev forumundakı çıxışında haqlı olaraq qeyd etdi ki, Azərbaycan dünyada multikulturalizm ünvanlarından birinə çevrilib və dünya birliyi onun bu statusunu tanıyır. Bununla bərabər, qeyd etməyə bilmərəm ki, bu cür genişmiqyaslı dialoq məkanı Rusiya və Azərbaycan prezidentlərinin təşəbbüsü ilə yaradılıb və Rusiya tərəfi bu prosesdə çox fəal iştirak edir.



*-Yəqin elə bu səbəbdən Rusiya Bakı forumunda belə çoxsaylı nümayəndə heyəti ilə təmsil olunub?*

-Bəli, bizim nümayəndə heyətimiz ictimai-siyasi məkanın bütün spektrlərini təmsil etməli və Rusiyanın Bakı forumuna göstərdiyi ciddi diqqəti vurğulamalı idi. Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin forum iştirakçılarına göndərdiyi təbrik məktubu, tədbirdə Rusiya baş nazirinin müavini Olqa Qolodesin iştirak etməsi buna sübutdur. O.Qolodes Prezident İlham Heydər oğlu ilə görüşdə qeyd edib ki, həm Rusiya, həm də Azərbaycan tolerantlıq və milli mədəniyyətlərin inkişafı siyasətinin davamlı şəkildə həyata keçirilməsi nümunəsi, habelə mehriban qonşuluq və bir-birinə hörmətli münasibət siyasətinin nümunələridir.

*-Bakı forumu çərçivəsində RF Dövlət Duması sədrinin müavini Sergey Neverov Azərbaycan Milli Məclisinin spikeri Oqtay Əsədov ilə görüşüb. Sizin də iştirak etdiyiniz həmin görüşdə söhbət nə barədə olub?*

-Bu il həm dövlətlərimizin başçıları arasında çox fəal əlaqələr, həm də Rusiya və Azərbaycan parlament nümayəndə heyətlərinin fəal mübadiləsi müşahidə olunur. Bu onu göstərir ki, Rusiya-Azərbaycan münasibətləri keyfiyyətcə yeni səviyyəyə çatır, humanitar əməkdaşlıq məsələləri isə bütün dövlətlərarası səviyyədə görüşlərin gündəliyindədir. Məsələn, belə layihələrdən birinin çərçivəsində Rusiya və Azərbaycanın on şəhəri arasında qardaşlaşma əlaqələri yaradılacaq. Regionlarda birgə Rusiya-Azərbaycan sərgiləri təşkil ediləcək, bu sərgilər ölkələrimizdə insanların bir-birini daha yaxşı tanımasına imkan yaradacaq. Bundan əlavə, Azərbaycan Milli Məclisi və Rusiya Dövlət Duması Xəzərin hüquqi statusuna dair beş Xəzəryanı dövlətin imzaladığı tarixi konvensiyanı ratifikasiya etməyə hazırlaşırlar. Görüşdə bu barədə də söhbət oldu.

*-Siz nümayəndə heyətinin tərkibində artıq neçənci dəfə Heydər Əliyev Mərkəzində və İçərişəhərdə olmusunuz. Bu yerlərdə özünüzün ilk və ən yeni təəssüratlarınızı müqayisə edə bilərsinizmi?*

-Azərbaycan paytaxtında bir dəfə olmuş insan sonradan hər dəfə buraya gələndə sanki öz evinə qayıdır, ona elə gəlir ki, burada onu sevirlər və gözləyirlər. Hətta Bakı ilə görüşlərim arasında cəmi bir neçə ay vaxt keçdikdə belə, bu şəhərin simasında baş vermiş dəyişikliklər diqqəti cəlb edir. Məsələn, iki ay bundan əvvəl Bakı Dənizkənarı Bulvarının ərazisində "Qu quşları" fəvvarəsi istifadəyə verilib. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə bərpa olunmuş bu fəvvarə ötən əsrin 60-cı illərində yaradılmış yeddi Qu quşu heykəlindən ibarətdir. Böyük Azərbaycan şairi Nizami Gəncəvinin "Yeddi gözəl" poeması və bəstəkar Qara Qarayevin eyniadlı baleti əsasında yaradılmış bu fəvvarənin ətrafı bakılıların və Azərbaycan paytaxtının qonaqlarının sevimli istirahət guşəsi idi. Zaman getdikcə transformasiyaya uğramış əfsanəvi fəvvarənin ilkin memarlıq siması yenidən bərpa edilib.

Ümumiyyətlə demək istərdim ki, mühafizəkarlığı ilə seçilən və dini ənənələrə üstünlük verilən Şərq ölkələrinin memarlığı ilə müqayisədə Azərbaycan memarlığı tamam fərqlidir. Burada şüşədən və betondan ucaldılmış göydələnlər arasında milli kolorit həmişə özünə yol açır. Bu fərq müasir Azərbaycanın, onun keçmiş və gələcək ilə əlaqəsinin təcəssümü olan Heydər Əliyev Mərkəzində daha ciddi hiss olunur. Düşünürsən ki, bu Mərkəzin memarlığı təbiətin bütün qanunlarına ziddir: Ümummilli Liderin imzasının motivləri əsasında yaradılmış, axıcı və dalğavarı formalı bina son dərəcə möhkəmdir və hətta Bakıya xas olan güclü küləklərə də davam gətirir. Azərbaycanlıların milli xarakteri də belədir!

# YAP İcra katibinin müavini Siyavuş Novruzov Laos Xalq İnqilabı Partiyasının nümayəndə heyəti ilə görüşüb



Oktyabrın 27-də Yeni Azərbaycan Partiyası İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov ölkəmizdə səfərdə olan Laos Xalq İnqilabi Partiyasının nümayəndə heyəti ilə partiyanın mənzil-qərargahında görüşüb.

Qonaqları salamlayan YAP İcra katibinin müavini bu səfərin partiyalar arasında əlaqələrin daha da inkişafına töhfə verəcəyini bildirib. Siyavuş Novruzov 2018-ci ilin may ayında partiyalar arasında əməkdaşlıq haqqında sazişin imzalandığını, qarşılıqlı səfərlərin baş tutduğunu xatırladaraq bütün bunların münasibətlərin inkişafına xidmət etdiyini diqqətə çatdırıb.

LXİP Xarici əlaqələr komitəsinin sədr müavini Somdi Bounkhoum Azərbaycanın uğurlu inkişaf təcrübəsinin onlarda maraq doğurduğunu vurğulayaraq, müxtəlif sferalarda partiyalararası əlaqələri daha da genişləndirmək niyyətində olduqlarını ifadə edib. O, vaxtilə Azərbaycanda təhsil almış laoslu tələbələrin hazırda yüksək dövlət vəzifələrində çalışdığını, özünün də Bakıda təhsil aldığını məmnuniyyətlə xatırlayaraq Azərbaycan-Laos əlaqələrinin dərin köklərinin olduğunu bildirib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

# Beynəlxalq Humanitar Forum İran mətbuatının diqqətində



Oktyabrın 25-26-da Bakıda keçirilən VI Beynəlxalq Humanitar Forum İran mətbuatının diqqət mərkəzində olub. AZƏRTAC xəbər verir ki, İranın İRNA Dövlət İnformasiya Agentliyi Forumun yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb. Qeyd olunub ki, Forumda yüzə yaxın ölkənin nümayəndəsi iştirak edib. Nüfuzlu şəxslərin Bakıya toplaşaraq qlobal mahiyyət daşıyan problemləri müzakirə etməsi Azərbaycanın xoş məramından xəbər verir.

Sayt diqqətə çatdırıb ki, Forumun müxtəlif panellərində müzakirə olunan məsələlər aktual xarakter daşıyır. Məsələn, dünyanın müxtəlif ölkələrinin nüfuzlu media qurumlarının rəhbərləri yalan xəbərlərin mətbuata sirayət etməsinin qarşısının alınması problemini təhlil ediblər. Qeyd olunub ki, bir çox hallarda mətbuatdan bu və ya digər dövlətə qarşı siyasi təsir mexanizmi kimi istifadə olunur, bu da demokratiya, söz və vicdan azadlığı ilə ziddiyyət təşkil edir. Materiallarda Azərbaycan dövlətinin başçısının Forumun keçirilməsi ilə bağlı təşəbbüsü yüksək qiymətləndirilib. Vurğulanıb ki, dünyanı narahat edən problemlərin Bakıda müzakirəsini təşkil etmək Prezident İlham Əliyevin qlobal xarakterli siyasi xadim olduğunu göstərir.

# Məktəblərdə psixoloji müayinələr aparılacaq



***Azərbaycanda təhsil müəssisələrində psixoloji müayinələrin aparılması qaydası müəyyən edilib. Milli Məclisdən SİA-ya verilən məlumata görə, yeni hazırlanan "Psixoloji yardım haqqında" qanun layihəsinə əsasən, təhsil müəssisələrində psixoloji müayinə təhsilalanın ehtiyaclarını müəyyənləşdirmək məqsədilə aparılır və onun maraqları ilə ziddiyyət təşkil edə bilməz.***

Psixoloji müayinə təhlükəsizliyi və konfidensiallığı təmin edən şəraitdə həyata keçirilməlidir. Təhsil müəssisələrində aparılan psixoloji müayinələrin nəticələri müayinə olunan şəxsin özünə və ya onun qanuni nümayəndəsinə verilir. 14 yaşına çatmayanlar barəsində müayinənin nəticələri yalnız qanuni nümayəndənin razılığı olduqda, 14 yaşı tamam olmuş şəxslər barəsində isə yalnız qanuni nümayəndənin, yaxud özünün razılığı olduqda bilavasitə tədrisi həyata keçirən müəllimə, təhsil müəssisəsinin rəhbərinə təqdim edilir.

Psixoloji müayinələrin nəticələri təhsilalanın valideynləri (və ya digər qanuni nümayəndələri) ilə müzakirə olunmalı və sonrakı tədbirlər üçün onlardan icazə alınmalıdır. Qeyd edək ki, "Psixoloji yardım haqqında" qanun layihəsi Milli Məclisin oktyabrın 30-da keçiriləcək plenar sessiyasında birinci oxunuş üçün müzakirəyə çıxarılacaq.

***Nailə Məhərrəmova***

# Dövlət başçısının regionlara hər səfəri sosial rifahın daha da inkişafına doğru atılan uğurlu addımdır

## *İlham Əliyev: "Bizim siyasətimiz ondan ibarətdir ki, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar"*

***Son illərdə ölkəmizdə sosial-iqtisadi tərəqqisini təmin edən amillərdən biri də regionların inkişafına nail olmaq və qəbul olunan dövlət proqramlarının uğurla həyata keçirilməsidir. Çünki regionların inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Məhz bu baxımdan da, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasətin əsas məqsədi paytaxtımızla yanaşı, bütün bölgələrimizin də hərtərəfli inkişafının təmin edilməsidir.***



Bu gün bölgələrimiz tarazlı şəkildə inkişaf edir, yeni infrastrukturlar qurulur, yollar çəkilir, körpülər tikilir, kəndlərimiz qazlaşdırılır. Eləcə də, yeni müəssisələr yaradılır ki, bu da insanların işlə təminatında vacib rol oynayır. Təbii ki, bu amil əhalinin sosial rifah halının daha da yüksəlməsi ilə müşayiət olunur. Bu da, bir daha göstərir ki, regionların sosial-iqtisadi inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri kimi xüsusi diqqət mərkəzində saxlanılır və Prezident İlham Əliyev bu məqsədlə ölkənin bütün şəhər və rayonlarına müntəzəm səfərlər edir, görülən işlərlə şəxsən maraqlanır, yeni müəssisə və obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirak edir.



### Hər səfər bir tarixdir

Dövlət başçısı bu günlərdə İmişli rayonuna səfərə gedib və səfər çərçivəsində bir çox mühüm tədbirlərdə iştirak edib. Belə ki, Prezident İlham Əliyev İmişlidə "ASAN Həyat" kompleksinin və Heydər Əliyev Fondunun təşəbbüsü ilə 100 yerlik körpələr evi-uşaq bağçasının, Bayraq Muzeyinin, "Azərişıq" ASC-nin İmişli Avtomatik-İdarəetmə və Nəzarət Mərkəzinin, Mingəçevir-Bəhrəmtəpə avtomobil yolunun, 112 kilometrlik Qarağacı-Bəhrəmtəpə hissəsinin, İmişli-Otuziki-Qaraqaşlı avtomobil yolunun, Araz çayının yeni qol-kanalının açılışlarında iştirak edib. Prezident İlham Əliyev İmişli rayonunda Araz çayının yeni qol-kanalının açılış mərasimində çıxış edərkən, bildirib ki, bu layihənin həyata keçirilməsi nəticəsində, İmişli və qonşu rayonların iqtisadiyyatına yeni təkan veriləcək: "Keçən dəfə İmişlidə olarkən, biz içməli su layihəsinin açılışını qeyd etmişdik. Digər infrastruktur layihələrinin icrası İmişli rayonunun ümumi inkişafına müsbət təsir göstərmişdir. Kənd yollarının, demək olar ki, 50 faizi əsaslı şəkildə təmir edilib, yenidən çəkilib. Biz bundan sonra da bu işlərlə məşğul olacağıq. Bakı-İmişli-Horadiz-Cocuq Mərcanlı istiqamətində yol ən yüksək standartlara cavab verir".



Dövlət başçıs çıxışı zamanı, onu da vurğulayıb ki, sosial infrastrukturla bağlı bir çox önəmli obyektlər istifadəyə verilibdir: "Onların arasında Olimpiya Kompleksi, 130 çarpayılıq mərkəzi rayon xəstəxanası, Gənclər Mərkəzi, digər layihələr, 25 məktəb əsaslı şəkildə təmir edilib və yenidən tikilib. Bu gün biz İmişlidə "ASAN Həyat" Mərkəzinin açılışını qeyd edəcəyik. Bu, çox önəmli sosial layihədir. Bildiyiniz kimi, "ASAN" bizim intellektual məhsulumuzdur. Azərbaycan bu intellektual məhsulu artıq xarici ölkələrə də ixrac edir. "ASAN Həyat" Mərkəzində yerli vətəndaşlar, xüsusilə, gənclər üçün 180-dən çox iş yeri yaradılıb. Qırxdan çox könüllü "ASAN Xidmət" Mərkəzində işləyəcək. Bu mərkəzdə 300-dən çox müxtəlif xidmətlər göstəriləcək. Əminəm ki, İmişli rayonunda sosial və ictimai xidmət sahələrində böyük irəliləyiş olacaqdır".

### "Bu layihənin icrası, ilk növbədə, bizim güclü iqtisadi imkanlarımızı göstərir"

Prezident İlham Əliyev həm İmişli rayonu üçün, həm də qonşu rayonlar üçün böyük əhəmiyyət daşıyan Araz çayının yeni qolunun tikintisi ilə bağlı məlumat verərək, qeyd edib ki, bu, böyük maliyyə vəsaiti tələb edən layihədir: "Bu layihəyə birinci mərhələdə 80 milyon manat sərmayə qoyulubdur və Araz çayının yeni qolunun uzunluğu 54 kilometrdir. Yeni beton su kanalı 53 min hektar torpağı su ilə təmin edəcək. Biləsuvar, İmişli, Saatlı rayonlarının fermerləri və zəhmətkeşləri bu imkanlardan istifadə edəcəklər. Növbəti mərhələdə, əlavə 10 min hektar torpağa suyun verilməsi nəzərdə tutulur və Sabirabad rayonunun torpaqları da suvarma suyu ilə təmin ediləcək. Bu layihənin icrası, ilk növbədə, bizim güclü iqtisadi imkanlarımızı göstərir. Çünki bu gün Azərbaycan istənilən infrastruktur layihəsini uğurla icra edə bilər və icra edir".

Dövlət başçısı, onu da vurğulayıb ki, son illər ərzində, kənd təsərrüfatı ilə bağlı görülən tədbirlər, bir çox məhsulların alış qiymətinin artımı nəticəsində, kəndlilərdə kənd təsərrüfatına maraq böyük dərəcədə artıb: "Bu gün kəndlərdə, demək olar ki, məşğulluqla bağlı ciddi problem yoxdur, işləmək istəyən iş tapar. Biz, sadəcə olaraq, yeni investisiyalarla, yeni layihələrlə fermerlər üçün, kəndlilər üçün bu imkanları genişləndirməliyik və genişləndirəcəyik. Böyük maliyyə vəsaiti tələb edən beton su kanalının çəkilişi 53 min hektara, - hansılar ki, ya tamamilə suvarılmayıb, ya da ki, qismən suvarılıb, - yeni həyat gətiririk, imkanlar yaradırıq ki, vətəndaşlar əksinlər, becərsinlər, pul qazansınlar, daha yaxşı yaşasınlar, evlər tiksinlər və xalqımızın rifahı yüksəlsin. Budur bizim əsas məqsədimiz və bu məqsədə çatmaq üçün biz əlimizdən gələni edirik. Nəticələr də, göz qabağındadır".

Bir məqamı da qeyd edək ki, Prezident İlham Əliyev yerlərə səfər edən zaman yalnız təməlqoyma və açılış mərasimlərində iştirak etmir, həmin bölgənin sakinləri ilə görüşlər zamanı onların təkliflərini dinləyir və söhbətlər edir. Söhbətlərdə əldə olunan nəticələrlə bərabər nöqsanlar barədə də Prezidentə məlumat verilir. Həmin nöqsanların və problemlərin aradan qaldırılması üçün Prezident İlham Əliyev səfərdən qayıtdıqdan sonra mühüm sərəncamlar verir, əlavə vəsaitlər ayırır və müvafiq orqanlar qarşısında göstərişlər qoyulur. Sözsüz ki, bu da regionların inkişafı üçün çox böyük hadisədir. Digər tərəfdən, bu təmas xalqla Prezidenti birbirinə yaxınlaşdırır və doğmalaşdırır. Bu da son nəticədə ölkənin inkişafına xidmət edir.

Bütün bu deyilənlər və əldə olunan nəticələr, bir daha bunu sübut edir ki, dövlət başçısının regionlara hər səfəri sosial rifahın daha da inkişafına doğru atılan uğurlu addımdır.

**RƏFİQƏ KAMALQIZI**

## Vüqar Rəhimzadə: "İkram Rəhimov peşəkar cinayətkardır"



"Realliq.info və onun kimi digər saytlar insanların şərəf və ləyqətini alçaldır, təhqir və böhtana yol verərək vətəndaşlara qarşı mənəvi terror həyata keçirir". Bunu SİA-ya açıqlamasında Mətbuat Şurasının İdarə Heyətinin üzvü, "İki sahil" qəzetinin baş redaktoru, "Reket jurnalistika"ya qarşı mübarizə Komissiyasının sədri Vüqar Rəhimzadə deyib. Onun sözlərinə görə, dəfələrlə İkram Rəhimovla bağlı Mətbuat Şurasına şikayətlər daxil olub: "Müraciətlərdə qələmə alınan faktların hamısı böyük cinayətlərdir. Bir neçə ay öncə bizə müraciət daxil oldu ki, İkram Rəhimov hazırda həbsdə olan, jurnalistikaya dəxli olmayan şəxslərə vəsiqə verərək, manipulyasiya yolu ilə onları azadlığa çıxarmağa cəhd göstərib. Bu cür davranışlar jurnalistikaya ləkə gətirir. İ.Rəhimov və komandası Mətbuat Şurasının rəhbərliyi və üzvləri haqqında çox təhqiramiz ifadələr səsləndirir, bizə böhtan və şər atır. MŞ olaraq İ.Rəhimovun rəhbərlik etdiyi reket saytları "qara siyahı"ya salmışdıq. Bundan sonra quruma qarşı şər və böhtanlarını daha da artırmışdı. Durmadan öz saytları və sosial şəbəkələr vasitəsi ilə ünvanımıza hədyanlar yağdırırdı. Əminliklə demək lazımdır ki, İkram Rəhimov peşəkar cinayətkardır".

V.Rəhimzadə hüquq-mühafizə orqanlarının İ.Rəhimovla bağlı digər cinayətlərin üzərini açacağını da əminliklə ifadə edib: "Biz onu nə qədər tərbiyə etməyə çalışsaq da, haqq-ədalət yolunu tutmağa, jurnalistikanın peşə etikasına riayət etməyə dəvət etsək də, o, azğınlaşmış formada öz əməllərini davam etdirdi. Çirkin niyyətindən əl çəkmədi. Sadəcə bizi deyil, idarə rəhbərlərini, iş adamlarını, sadə vətəndaşları da təhqir edir, böhtan atırdı. Şantaj yolu ilə bir çox adamdan vəsait istəyirmiş. Məsələn, Neftçalada elektrik şəbəkəsinin rəisindən və dövlət təşkilatlarından pul tələb edirmiş. Ona görə də DTX tərəfindən həyata keçirilən əməliyyatı dəstəkləyirəm. Məsələ ondadır ki, biz sadəcə "qara siyahı"ya sala bilirik və ictimai qınağı formalaşdırırıq. Başqa hansısa tədbir görə bilmirik".

## Bəhruz Quliyev: "Reket jurnalistikası ilə mübarizəni davamlı aparmaq vacibdir"



"Ölkəmizdə reket jurnalistikası kimi amilin aradan qaldırılması istiqamətində tədbirlər davam etdirilir və belə tədbirlərin həyata keçirilməsi davamlı olaraq reallaşdırılmalıdır". Bu fikirləri Olaylar.az -a "Səs" qəzetinin baş redaktoru, ekspert Bəhruz Quliyev bildirib. Onun sözlərinə görə, bu gün Azərbaycan mediasının inkişafı və tərəqqisi istiqamətində kifayət qədər qərarlar verilir, addımlar atılır: "Müstəqil Azərbaycanın müasir mətbuatının inkişaf təzahürlərindən biri də çoxsaylı yazılı və elektron media resurslarının fəaliyyət göstərmələridir. İstər ölkə rəhbərliyi tərəfindən, istərsə də mətbuatla bağlı qurumlar tərəfindən zaman-zaman həyata keçirilən münbit işlər öz uğurlu nəticələrini verir".

Bəhruz Quliyev həmçinin qeyd edib ki, reket jurnalistikası müstəqil və azad ölkə mətbuatından sui-istifadələr nəticəsində yaranır və belə bir sui-istifadə faktoru ilk növbədə Azərbaycanın tarixi əsaslara söykənən jurnalistikasına vurulan xəyanət zərbəsidir: "Təəssüf ki, zamanında sağlam tənqidlərə əsaslanan və araşdırma jurnalistikası kimi də bilinən media fəaliyyəti bir sıra şəxsi mənfəətlərini güdən dırnaqarası jurnalistlərlə əvəz olunmağa başladı ki, bu da reketçiliyin əsasını qoymuş oldu. Hətta deyərdim ki, həqiqi jurnalistika getgedə müxtəlif vasitələrlə sıxışdırılmağa başladıldı. Ölkəmizdə mövcud olan söz və ifadə azadlığı gerçəkliyindən sui-istifadə edən insanlar öz çirkin niyyətlərini qara yaratək yaymağa başladılar. Ona görə də, qeyd etdiyim kimi, bu kimi qara yaraları, tarixi özəlliklərə malik mətbuatımıza qarşı zərbələr vuran halları kəsib atmağa zərurət var".

Reket jurnalistikasının fəsadlarını və yayılma səbəblərini də izah edən baş redaktor hesab edir ki, burada əsas məqam asan və qanunsuz yollarla maddi gəlir əldə etmək kimi hallara söykənir: "Diqqət yetirsək görərik ki, hazırda ölkəmizdə ciddiyyəti və nüfuzu ilə, informasiya və innovativ sferadakı fəaliyyəti ilə seçilən bir neçə sayt və portallar mövcuddur. İnformasiya resurslarını özləri istehsal edərək oxuculara çatdıran sayt və portallar hər dəqiqə ölkə daxilində və xaricdə baş verən siyasi, mədəni, idman, sosial və s. sahələri əhatə edən məlumatlar yayır, müxtəlif təhlilləri, şərhləri, müsahibə və açıqlamaları oxuculara təqdim edirlər. Yəni bu, ictimai rəyi dolğun informasiya ilə təmin etmək anlamı olaraq qiymətləndirilir.

Bəs, reketçiliklə məşğul olanlar nə edirlər? Onlar ictimai rəyin gözündən pərdə asmaq üçün gün ərzində uzağı bir, ya da iki məlumatı başqa mənbələrdən oğurlayıb (copy pasted.) öz saytlarına yerləşdirməklə "informasiya yaymaq prinsipi" əsasında işlərini bitmiş hesab edirər və bundan sonra çirkin, qanunsuz əməllərini davam etdirirlər. Hətta deyərdim ki, belə saytlar öz təbirlərincə, biclik edirlər. Yəni başqa saytlarda yayımlanan məlumatları işıqlandırmaqla, sonradan öz çirkin niyyətlərini reallaşdırmağa çalışırlar. Müxtəlif iş adamlarına, dövlət qurumlarına, məmurlara və ayrı-ayrı fərdlərə qarşı şantaj, böhtan kampaniyalarına start verirlər. Ən diqqət çəkən məqam isə budur ki, bənzər reket saytlar və qəzetlər əllərində olan şantaj xarakterli məlumatları bir-birlərinə ötürərək, gündəmə çıxardıqları şəxsləri bir neçə gün, hətta bir neçə ay ictimai rəyin diqqətində saxlamağa çalışırlar. Beləliklə, qondarma jurnalist vəsiqələrinin imtiyazlarından istifadə edib, cinayət əməllərinə rəvac vermiş olurlar".

Bəhruz Quliyev digər bir nüansa da toxunaraq bildirib ki, bu gün ölkəmizdə sayt açmaq çox asandır və bir domenin əldə edilməsi üçün uzağı 20 AZN lazım olur: "Bu məbləğ ödənildikdən sonra, saytların dövlət qeydiyyatından keçib-keçməməsi həmin reketləri maraqlandırmır. Əgər həmin sayt bağlanarsa, digərini çox asanlıqla aça bilərlər. Düşünürəm ki, məhz bu kimi problemin də aradan qaldırılması istiqamətində müvafiq qurumlar fəaliyyətlərini davam etdirməlidirlər və etdirirlər də. Ümumiyyətlə, hesab edirəm ki, reketizmlə məşğul olan jurnalistlər konstitusion hüquqlar, qanunlar əsasında, cinayət məsuliyyətinə cəlb edilməlidirlər. Məhz bu baximdan, daha böyük fəsadların, daha arzuolunmaz halların yenidən yaranmaması üçün, reket jurnalistikası ilə mübarizəni davamlı xarakterdə aparmaq vacibdir".

***Rövşən***

## "Jurnalistika ilə əlaqəsi olmayan fəaliyyətlər informasiya təhlükəsizliyimizi təhdid edir"



"Adına reket jurnalistika dediyimiz, əslində isə jurnalistika ilə heç bir formal və prinsipial əlaqəsi olmayan fəaliyyətlər ölkəmizin milli və informasiya təhlükəsizliyini qorxulu şəkildə təhdid edir, vətəndaş həmrəyliyini pozur, əsl jurnalistikanı gözdən salır, neçə-neçə dəyərli jurnalistin adına və əziz xatirəsinə hörmətsizlik edir". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

O bildirib ki, Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) "Realliq.info" saytının rəhbəri İkram Rafiqoğlu ilə bağlı seçdiyi saxlama qərarı reket jurnalistikaya qarşı mübarizənin tərkib hissəsi olmaqla bərabər, həm də ölkəmizin milli təhlükəsizlik məsələsidir. Baş redaktorun sözlərinə görə, ölkəmizdə media fəaliyyətinə başlamaq qədər asan ilkin şərtlərə malik ikinci bir sahənin olmadığı bəllidir: "Çox asanlıqla sayt və portallar, qəzet və jurnallar açıb fəaliyyət göstərmək mümkün olduğu halda bəziləri asan şəraitin verdiyi imkanlardan sui- istifadə edərək insanların şəxsi həyatına müdaxilə edir, onları alçaldır, şantajla pul qazanır, aylıq haqqa oturdur, hətta jurnalist çətiri altında konstitusiya quruluşunu və dövlətin ərazi bütövlüyünü hədəfə alan çağırışlar edirlər".

A.Quliyev qeyd edib ki, aradan maliyyələşdiyi bilinmədiyi halda bir şəxsin eyni vaxtda bir neçə sayt yaradaraq fəaliyyət göstərməsi, anormal olmaqla bərabər həm də özündə böyük təhlükələr gəzdirən şübhəli mahiyyətə malikdir: "Jurnalist adı altında hər cür qanuna zidd və jurnalistika ilə əlaqəsi olmayan işlərlə məşğul olmaq, bu işlərə görə cəzalandırılanda isə "jurnalist təqib olunur" kimi hay-küylə dünyanın diqqətini cəlb etmək cəhdləri dövlətə zərbə vurmaq niyyətindən başqa bir şey deyil. Azərbaycan dövləti və şəxsən Prezident İlham Əliyev əsl jurnalistikaya və peşəkar jurnalistlərə hər cür himayə göstərir. Buna qane olmayaraq özləri üçün başqa imkanlar axtaranlar, reketçilik üsullarına meyllənərək həm medianı, həm də ictimai mənafeləri gözdən salırlar".

Baş redaktor vurğulayıb ki, İkram Rafiqoğlu ilə bağlı saxlanma qərarı bir daha göstərdi ki, reket üsullarla əsl jurnalistika bir araya sığmaz və jurnalist adı altında qanuna zidd əməllərlə məşğulluq halları hər zaman ciddi nəzarətdə saxlanmalıdır: "Reketçiliklə məşğul olan qondarma jurnalistlər və bu sayaq media orqanları ilə mübarizə ictimai qınaq, hüquqi müstəvidə bir-birini tamamlayan zəruri mübarizələr kimi davam etdirilməlidir".

## Azərbaycanın intellektual məhsulu olan "ASAN Xidmət" dünyaya nümunədir

İnnovativ texnologiyalardan istifadə imkanları ilə fərqlənən Azərbaycanda ən qabaqcıl texnologiyaların tətbiq edilməsi, əhaliyə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi, cəmiyyətdə informasiya texnologiyalarından istifadəyə əlverişli şəraitin yaradılması üçün məqsədyönlü işlər, davamlı olaraq, həyata keçirilir. Dövlət proqramları, aparılan islahatlar, həyata keçirilən layihələrin məntiqi olaraq, artıq ölkəmizdə elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb. Təbii ki, elektron xidmətlər, eyni zamanda, korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biri kimi qiymətləndirilir. Bu gün əbəs deyil ki, İKT respublikada korrupsiya ilə mübarizə, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir.




Ölkədə "Elektron hökumət" portalı fəaliyyət göstərir və bu portala qoşulmuş dövlət qurumlarının elektron xidmətlərinin "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdimi də görülən işlərin məntiqi davamıdır. Bütün bunlarla yanaşı, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, vahid məkandan və müasir innovasiyaları tətbiq etməklə, həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN Xidmət" mərkəzləri yaradıldı ki, bu da qısa müddətdə özünü doğrultdu. VI Bakı Beynəlxalq Humanitar Forumunda çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, "İctimai xidmətlər sahəsində xas olan bürokratiya, süründürməçilik, korrupsiya və rüşvətxorluq hallarına tamamilə son qoyulubdur. Bir neçə il ərzində, "ASAN Xidmət" mərkəzlərinə 24 milyondan çox müraciət olmuşdur və onların mütləq əksəriyyəti təmin edilmişdir".

Müasir dövrümüzdə "ASAN Xidmət" dünyaya nümunə olan modeldir. Azərbaycan Prezidenti İlham Əliyevin dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində həyata keçirdiyi islahatların tərkib hissəsi olan "ASAN Xidmət" dövlət və özəl xidmətlərin vahid məkandan innovasiyaların tətbiqi ilə vətəndaşlara çatdırılması sahəsində uğurlara səbəb olub. Azərbaycanın "ASAN Xidmət" modeli dünyanın bir çox ölkələri, beynəlxalq təşkilatları tərəfindən yüksək qiymətləndirilir və bu təcrübəyə böyük maraq var. Bu modeldən dünya ölkələri bəhrələnir. Dövlət xidmətlərinin səmərəliliyinin artırılması hazırda bir çox ölkələr üçün önəmli çağırışlardan biri olduğundan, tərəfdaş ölkələrlə "ASAN xidmət" modelinin tətbiqi, təcrübələrin paylaşmağı istiqamətində fəal əməkdaşlıq aparılır.

Forumda dövlət başçısı "ASAN Xidmət" mərkəzlərinin yaradılmasının sosial və humanitar sahədə çox önəmli təşəbbüs olduğunu iştirakçıların diqqətinə çatdırıb. Bildirib ki, əgər qonaqlarda imkan olarsa, onlar Bakı şəhərində fəaliyyət göstərən beş mərkəzdən birinə baş çəkə bilərlər: "Görə bilərlər ki, doğrudan da, Azərbaycan texnologiyaları əsasında, sırf Azərbaycanın intellektual məhsulu olan "ASAN Xidmət" necə fəaliyyət göstərir. Bu il bu mərkəzlərin sayı 15-ə çatdırılacaq, 5-i Bakıda, 10-u bölgələrdə. Bu mərkəzlərdə bir binada 300-dən çox xidmət göstərilir və vətəndaşların "ASAN Xidmət"i bəyənmə əmsalı 100 faizə yaxındır. Bu, ictimai xidmətlər sahəsində bir inqilab olmuşdur".

Göründüyü kimi, bu gün Azərbaycan dünyaya inteqasiya edir, öz məhsullarını dünya bazarına çıxarır, modern, yenilikçi ölkə olaraq dünyanın qabaqcıl ölkələri ilə əməkdaşlığa üstünlük verir. Əlbəttə ki, siyasi sabitlik, dinamik sosial-iqtisadi inkişaf, cəmiyyətimizin demokratikləşməsi, nəhəng enerji və nəqliyyat layihələrinin reallaşması, informasiya və kommunikasiya texnologiyalarının tətbiqi Azərbaycanın qabaqcıl ölkələr sırasına çıxmasına imkan yaradıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

30 oktyabr 2018-ci il

# Reketçiliyə qarşı mübarizə tədbirləri gücləndirilir

## *"Jurnalistika fəaliyyəti ilə kimlərin məşğul olması ilə bağlı kriteriyalar müəyyənləşdirilməlidir"*

***Mətbuat Şurası reketçiliyə qarşı mübarizə tədbirlərini gücləndirsə də, sosial şəbəkələrdə, eləcə də, ayrı-ayrı saytlarda, mətbu orqan səhifələrində insanların şəxsi həyatı ilə bağlı təhqiramiz ifadələr yer alır, müxtəlif şər-böhtanlar səsləndirilir və ittihamlar irəli sürülür. Söhbət etdiyimiz müsahiblərimiz bu cür problemin kökündən həlli üçün qanunvericilikdə müəyyən dəyişikliklər edilməsinin zərurət olduğunu bildirdilər.***

### Azərbaycan Mətbuat Şurasının sədr müavini, BAMF-nın sədri Umud Rəhimoğlu: "Reketçilik jurnalistikamız üçün böyük bəlaya çevrilib"



- Reketçilik jurnalistikamız üçün böyük bəlaya çevrilib. Yəni özünə həyatda uyğun bir iş tapa bilməyən, jurnalistikanın dəyərləri haqqında anlayışları olmayan insanlar bəzən qələm götürüb "jurnalistəm" deyə insanlar haqqında xoşagəlməyən tərzdə yazılar yazırlar, şantaj edirlər və bunun qarşılığında, müəyyən məbləğdə pul almağa çalışırlar. Bu cür hallar bizim üçün çox üzücü bir durumdur. Son illər Azərbaycan Mətbuat Şurası reketçiliyə qarşı mübarizə tədbirlərini gücləndirib və bu istiqamətdə çox böyük irəliləyişlərə nail olunub. Print mediada bununla bağlı olan məsələlər, demək olar ki, böyük faiz dəyişikliyi olmuşdur. Bəzən görürsən ki, bir insan bir necə müxtəlif adlarda, bir-birindən fərqli saytlar yaradır və bunun əhatəsində jurnalistikamıza yad olan bir şəbəkə formalaşdırırlar. Bu da, müəyyən problemlər yaradır. Həm cəmiyyətimizdə, həm də jurnalistikamızda özünün yaraşmayan məsələlər çıxır ortalığa. Bununla bağlı, qanunvericilikdə bəzi boşluqlar var. Müstəqillik əldə etdikdən sonra mətbuat üzərində senzuranın ləğv edilməsi, Mətbuat və İnformasiya Nazirliyinin fəaliyyətinin dayandırılması müstəqil medianın inkişafı üçün atılan addımlardır və bunun da xeyli müsbət nəticələrini görürük. Amma bizim qanunvericilik bazasında, bir sıra məsələlər var ki, bunlar, xüsusən də, internet media ilə bağlı olan məsələlərdir. İnternet media təkmilləşməlidir və bu cür şər-böhtan xarakterli yazılarla çıxış edən saytların fəaliyyəti ilə bağlı ölçü götürmək üçün müəyyən hüquqi baza olmalıdır.

### "Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova: "Reket jurnalistikanın qarşısının alınması istiqamətində ciddi addımlar atılır"



- Son illərdə Azərbaycanda reket jurnalistikanın qarşısının alınması istiqamətində ciddi addımlar atılıb. Kütləvi İnformasiya Vasitələri haqqında qanuna edilən dəyişikliklər, həmçinin, inzibati qaydada həyata keçirilən tədbirlər ənənəvi mediada bu sahədə vəziyyətin daha da yaxşılaşdırılmasına şərait yaradıb. Bununla belə, informasiya texnologiyalarının inkişafı nəticəsində, yeni-yeni informasiya mənbələri formalaşır. Bunlardan ən əsası sosial şəbəkələr və elektron mediadır. Bu gün Azərbaycanda internetdən istifadə tam azaddır. Hər kəs sosial şəbəkələrdən sərbəst şəkildə istifadə edə və sayt yarada bilər. Lakin biz dövlət səviyyəsində vətəndaşlar üçün yaradılmış bu imkanlardan sui-istifadə hallarına da rast gəlirik. Təəssüflər olsun ki, bəziləri şəxsi maraqlarını hər şeydən üstün tutaraq, jurnalist adı altında reketçiliklə və şantajla məşğul olurlar. İllərdir, mediada formalaşan dəyərləri heçə endirərək, jurnalist adına ləkə salırlar. Dəfələrlə edilən xəbərdarlıqlara, adlarının "Qara siyahı"ya salınmasına baxmayaraq, yenə də qanunları pozur, öz çirkin əməllərini davam etdirmək üçün yeni-yeni saytlar yaradırlar. Bu saytlar vasitəsi ilə dövlətçiliyə xidmət edən cəmiyyətin müxtəlif kəsimindən olan insanları şantajla hədələyirlər. Hüquq-mühafizə orqanları belələrinin aşkara çıxarılıb qanunvericiliyin tələblərinə uyğun şəkildə cəzalandırılması üçün əllərindən gələni edirlər. Lakin təcrübə göstərir ki, atılan addımlar kifayət deyil. Təbii ki, bu cür vəziyyət ciddi narahatlıq doğurur. İstər dövlət, istərsə də Azərbaycan mediasının aparıcı simalarının çağırışlarına baxmayaraq, problemin həlli mümkün olmayıb. Bu səbəbdən, məlum problemin həlli istiqamətində inzibati tədbirlərin sərtləşdirilməsi və qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi zərurətinin yarandığı qənaətindəyəm. Sözügedən istiqamətdə çağırışlar dəfələrlə Milli Məclisdə də səsləndirilib. Bu, həm də Azərbaycan cəmiyyətinin mövcud təhdidə qarşı çağırışıdır. Həmçinin, özünə doğru olmayan bu yolu seçənlərə qarşı mübarizə tək dövlət və onun qurumları tərəfindən yox, daha sağlam cəmiyyətdə yaşamaq istəyən hər bir kəs tərəfindən aparılmalıdır.

### Jurnalistlərin Həmkarlar İttifaqının sədri Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli: "Sosial şəbəkə istifadəçiləri başqalarını təhqir edirsə, bu, hüquqi məsuliyyət yaradır"

- Mətbuat Şurasının tənzimləmə obyekti ənənəvi medianın bir hissəsi (çap media və informasiya agentlikləri) və onlayn media qurumlarıdır. Sosial media-sosial şəbəkələr isə, Mətbuat Şurasının özünütənzimləmə qurumu olaraq, tənzimlədiyi qrupa daxil deyil. Sosial şəbəkələr, nəinki Mətbuat Şurası tərəfindən tənzimlənmir, ümumiyyətlə, bu sahədə hər hansı digər tənzimləyici qurumlar mövcud deyil. Amma bu, o demək deyil ki, sosial şəbəkələr istənilən növ yalana, təhqir və böhtana açıq olmalıdır. Xeyr, sosial şəbəkə istifadəçiləri bilməlidirlər ki, burada paylaşılan fikirlər, açıqlamalar, əgər başqalarının təhqir edilməsi və ya kiməsə böhtan atılması ilə müşayiət olunursa, bu, hüquqi məsuliyyət yaradır. Bu, dünyanın hər yerində belədir. Təhqir və böhtan, harada yayılmasından asılı olmayaraq, əgər kütləvi halda yayılıbsa, hüquqi məsuliyyət doğurur. Azərbaycanda, haqlı olaraq, bu məsələnin hüquqi tənzimlənməsi üçün addımlar atılır, qanunlara əlavə və dəyişikliklər edilir. Artıq Cinayət Məcəlləsinin 147-148-ci maddələrinə dəyişikliklər edilib, həmçinin, bu maddələrə, məxsusi olaraq, sosial şəbəkələri ehtiva edən bir saylı əlavə olunub. Bu, o deməkdir ki, sosial şəbəkə istifadəçiləri başqalarını təhqir edir, kiməsə böhtan atırlarsa, bu, hüquqi məsuliyyət yaradır.



### "Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev: "Saytlar var ki, orada keçmiş məhkumlar, qəssablar və ticarətlə məşğul olan şəxslər çalışırlar"

- Reketçiliklə mübarizə Azərbaycan mətbuatının, ən böyük problemlərindən biridir. Azərbaycan müstəqillik əldə edəndən və müstəqil media formalaşandan sonra bu problem gündəmdə olub və daim müzakirələr aparılıb. Bu məsələnin həll yolları ilə bağlı müxtəlif təkliflər səsləndirilib. Mətbuat Şurası formalaşdırılandan sonra da reketçiliklə mübarizədə xüsusi komissiya fəaliyyətdədir. Mütəmadi, bu istiqamətdə meydana çıxan şikayətlər komissiyada araşdırılır və müvafiq qərarlar qəbul olunur. Bildiyiniz kimi, reket mətbuatının qara siyahısı var. Bu qara siyahı KİVDF xətti ilə dövlət yardımları olarkən və dövlət orqanlarının münasibətləri qurularkən, nəzərə alınır. Yeni dövlət orqanları baxırlar ki, hansısa bir mətbuat orqanının adı bu qara siyahıda varsa, onunla əməkdaşlıqdan yayınırlar. Amma reallıq göstərir ki, biz bu problemin kökünü kəsə bilməmişik. İnternet medianın gündəmə gəlməsindən sonra bu problem daha da aktuallaşıb. Misal üçün əvvəllər reket qəzetlərin buraxılması üçün müəyyən maliyyə tələb olunurdu. Qəzet çapı çox maliyyə tələb edən işdir. Amma sayt açmaq o qədər problem deyil. Kiminsə razılığını almağa ehtiyac yoxdur. Yəni çox kiçik məbləğ müqabilində saytı istifadəyə verib, orada jurnalist fəaliyyəti ilə məşğul olmaq və bu üzdən iraq məqsədləri həyata keçirmək imkanı mövcuddur. Uzun illərdir ki, reketçilik fəaliyyəti ilə məşğul olurlar və şəxsi qazanc əldə etmək üçün bundan istifadə edirlər. Son vaxtlar dövlət xətti ilə qanunvericiliyə edilən dəyişikliklər çərçivəsində bu saytların bəzilərinə blok qoyulur. Yəni ölkə ərazisində bu saytların yayımı məhdudlaşdırılır. Amma "bu da problemin kökünü tam kəsir" deyə bilmərik. Tezliklə bu problemin tamamilə aradan qaldırılması sadəlövhlük olardı. Amma kompleks tədbirlərin görülməsinə ehtiyac var. Birincisi, bu sahədə nizam-intizam yaradılmalıdır. Yəni jurnalistika fəaliyyəti ilə kimlərin məşğul olması ilə bağlı konkret kriteriyalar müəyyənləşdirilməlidir. Məsələn, saytlar var ki, keçmiş məhkumlar, ali təhsili olmayanlar, hətta rayonlarda qəssablar, hansısa ticarətlə məşğul olan şəxslər, paralel olaraq, sayt da işlədirlər və bundan pul qazanırlar. Bu da, ümumilikdə, Azərbaycan mətbuatının imicinə çox böyük bir zərbədir. Qanunvericiliyə dəyişikliklər olunmalıdır, MŞ-nin Reketçiliklə Mübarizə Komissiyasının səlahiyyətləri artırılmalıdır, hüquq-mühafizə orqanları bura cəlb olunmalıdır, yəni ümumilikdə, çalışaraq, bu sahədə bir qayda-qanun yaradılmalıdır.



**GÜLYANƏ**

# Regionlarda "Sosial bağlar" aztəminatlı ailələrin rifahını yüksəldəcək

***Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən inkişaf strategiyası, dövrün tələblərinə uyğun sistemli islahatların aparılması, ictimai-siyasi, sosial-iqtisadi həyatda mütərəqqi dəyişikliklərin edilməsi, təhlükəsizliyin, sabitliyin gücləndirilməsi ilə bağlı görülən tədbirlər dövlətimizin qüdrətinin artmasını, xalqımızın əmin-amanlığının və rifah halının yüksəlməsini təmin edib. Dövlət başçısının rəhbərliyi ilə regionların inkişafı strategiyasının uğurla həyata keçirilməsi, regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin uğurlu icrası ölkəmizin sosial-iqtisadi inkişafına müsbət təsirini göstərib.***



Bu uğurların əldə olunmasında, mühüm layihələrin reallaşdırılmasında Heydər Əliyev Fondunun da rolu müstəsnadır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyeva ölkəmizin sosial-iqtisadi, xalqın maddi rifahının yaxşılaşdırılmasına dəstək verən, eləcə də, tariximizin, Azərbaycan həqiqətlərinin bütün dünyada tanıdılması istiqamətində müxtəlif proqram və layihələr reallaşdırır. Digər sahələrlə yanaşı, sosial məsələlərin həllinə, sosial cəhətdən həssas qrupların sosial müdafiəsinin yaxşılaşdırılması tədbirlərinə də dəstək verilməsi üçün fond tərəfindən ardıcıl və əhatəli layihələr və proqramlar həyata keçirilir. Fondun xüsusi qayğıya ehtiyacı olan və əlilliyi olan şəxslərlə bağlı bu günədək reallaşdırdığı layihələr arasında Bakıda və regionlarda reabilitasiya mərkəzlərinin və müəssisələrinin yaradılması mühüm yer tutur. Valideyn himayəsindən, ailə qayğısından məhrum olan uşaqların cəmiyyətə inteqrasiyasına dəstək, onların asudə vaxtının səmərəli təşkili üçün, mütəmadi olaraq, həyata keçirilən tədbirlər də Heydər Əliyev Fondunun diqqət mərkəzində saxladığı məsələlərdəndir. Fondun prezidenti Mehriban Əliyevanın xeyirxah missiyasının davamı olaraq, Bakıda yaradılan Xüsusi Qayğıya Ehtiyacı olan uşaqların Dövlət Reabilitasiya Müəssisəsi ölkədə uşaqlar üçün yüksək standartlara uyğun reabilitasiya infrastrukturunun genişlənməsinə imkan verir. Fondun mühüm sosial layihələrindən biri də "Məzun evi" Sosial Müəssisəsidir. Müəssisədəki iki yaşayış binasında valideyn himayəsindən məhrum olmuş 243 gənc mənzillə təmin edilib.

### "BİZİM HƏYATA KEÇİRDİYİMİZ HƏR BİR LAYİHƏ, İLK NÖVBƏDƏ, VƏTƏNDAŞLARIN MARAQLARINI QORUMAĞA, KÖMƏYƏ EHTİYACI OLAN İNSANLARA YARDIM ETMƏYƏ YÖNƏLİB"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə təsis edilən "Regional İnkişaf" İctimai Birliyi də vətəndaş cəmiyyəti quruculuğunda əhəmiyyətli layihələr reallaşdırıb. Bölgələrdə yaşayan vətəndaşların üzləşdiyi problemlərin, yerli əhalini kompleks şəkildə narahat edən məsələlərin aradan qaldırılması kimi məsələləri əsas məqsəd kimi qarşıya qoyaraq elm, təhsil, səhiyyə, mədəniyyət, sosial, idman, ekologiya, İKT və infrastruktur layihələri həyata keçirir. "Regional İnkişaf" İctimai Birliyi və Böyük Britaniyanın Azərbaycana Birgə Yardım təşkilatı arasında əməkdaşlıq haqqında imzalanan memorandum çərçivəsində UAFA nümayəndələri Biləsuvar və Cəlilabad rayonlarında 300-dən çox aztəminatlı və sosial dəstəyə ehtiyacı olan ailədə görüşlər keçirib, onlara müxtəlif dövlət qurumlarının xidmətlərindən istifadəsinin genişləndirilməsi, ailə sahibkarlığının, davamlı kənd təsərrüfatı imkanlarının inkişaf etdirilməsi, müasir metodologiyalardan istifadə etməklə uşaqlara yönəldilmiş səhiyyə, təhsil, habelə, sosial xidmətlər şəbəkəsinin gücləndirilməsi istiqamətində təşkilati və hüquqi yardım göstərib. Mehriban xanım Əliyevanın vurğuladığı kimi, bizim həyata keçirdiyimiz hər bir layihə, ilk növbədə, vətəndaşların maraqlarını qorumağa və köməyə ehtiyacı olan insanlara yardım etməyə yönəlib.

Həqiqətən də, "Regional İnkişaf" İctimai Birliyi qısa bir vaxt ərzində regionların həyatında mühüm rol oynayıb. RİİB-in regionlarda ictimai nəzarətin həyata keçirilməsində, region sakinləri ilə dövlət və bələdiyyə orqanları arasında dialoqun inkişaf etdirilməsində göstərdiyi təşəbbüslər də diqqətəlayiqdir. Təbii ki, bütün görülən işlər Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələrdən qaynaqlanır.

### YEDDİ MİNƏDƏK AİLƏNİN KİÇİK AİLƏ TƏSƏRRÜFATLARI YARADILACAQ

Bildiyimiz kimi, görülən işlərin davamı olaraq, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında özünüməşğulluq proqramının icrası sahəsində əməkdaşlığa dair imzalanan memorandum da Prezident İlham Əliyevin sosial inkişaf kursunun yüksək səviyyədə həyata keçirilməsində Heydər Əliyev Fondunun fəal iştirakının növbəti göstəricisidir. İmzalanan Memoranduma əsasən, fondun "Regional İnkişaf" İB özünüməşğulluq proqramının icrasında ƏƏSMN ilə əməkdaşlıq etməklə intensiv meyvə bağlarının, tərəvəz və bostançılıq təsərrüfatlarının yaradılmasına artıq öz dəstəyini verir. Özünüməşğulluq proqramı aztəminatlı ailələr üçün kiçik ailə biznesinə çıxışın təminatı ilə yanaşı, ölkədə kiçik və orta sahibkarlığın dəstəklənməsinə yönəlib.

"Sosial bağlar" layihəsi iştirakçılarından 30 nəfəri şəhid ailəsi üzvləri, 28 nəfəri əlilliyi olanlar, qalanları aztəminatlı ailələrin üzvləridirlər. Layihəyə cəlb edilənlər üçün alma, gilas, qoz, gavalı və s. meyvələr üzrə bağların, tərəvəz və bostanların salınması işləri həyata keçirilməklə yanaşı, digər sahələrdə də onlara dəstək göstəriləcək.

Bu gün Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilir. Respublikamızda siyasi, iqtisadi və sosial islahatlar uğurla həyata keçirilir, ölkə iqtisadiyyatı inkişaf etdirilir və əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görülür və bütün istiqamətlərdə böyük inkişaf müşahidə olunur.

**ZÜMRÜD BAYRAMOVA**

## Elmar Məmmədyarov Mövlud Çavuşoğlu ilə görüşüb



Azərbaycanın, Gürcüstanın və Türkiyənin xarici işlər nazirlərinin İstanbulda keçirilən 7-ci Üçtərəfli Görüşü çərçivəsində xarici işlər naziri Elmar Məmmədyarov Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki dost və qardaş dövlət arasında əməkdaşlığın bütün sahələrdə və müxtəlif formatlarda yüksək səviyyəli inkişafından, siyasi əlaqələrin strateji müttəfiqlik səviyyəsindən məmnunluq ifadə edilib. Nazirlər strateji tərəfdaşlıq, mehriban qonşuluq, qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacibliyini qeyd ediblər.

Tərəflər hər iki ölkənin iştirakı ilə həyata keçirilən mühüm enerji, nəqliyyat, tranzit, logistika və digər layihələr ətrafında fikir mübadiləsi aparıblar. Nazirlər Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsinin regionun inkişafına, insanlararası təmasların və ticarət dövriyyəsinin artmasına mühüm töhfə verəcəyinə əminliklərini bildiriblər. Azərbaycanın və Türkiyənin təşəbbüsü və iştirakı ilə həyata keçirilən regional layihələrin Asiya ilə Avropa arasında rəqabətədavamlı daşımaları asanlaşdıracağı xüsusi qeyd edilib.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində aparılan danışıqlar prosesi haqqında məlumat verən nazir Elmar Məmmədyarov Azərbaycanın substantiv danışıqlara hazır olduğunu bildirib. Nazir E.Məmmədyarov BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə zidd olaraq, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərində mövcudluğunun bütün region üçün ciddi təhlükə mənbəyi olduğunu vurğulayıb. Görüşdə, həmçinin elm, təhsil, səhiyyə və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib.

## Fransa səfirliyi: "Rəsmi Paris "Dağlıq Qarabağ respublikası"nı tanımır"



Fransanın Azərbaycandakı səfiri Dağlıq Qarabağ münaqişəsi qurbanlarına və onların ailələrinə, eləcə də çoxsaylı məcburi köçkünlərə bir daha səmimi hisslərini ifadə edir. Fransız şəhərlərinin merlərinin Dağlıq Qarabağa səfərlərinə gəldikdə, Fransanın mövqeyi aydındır və birmənalıdır. Fransanın Xarici İşlər Nazirliyi oktyabrın 26-da bunu bir daha xatırladıb ki, Fransa "Dağlıq Qarabağ respublikası"nı tanımır və yerli hakimiyyət orqanları tərəfindən imzalanmış sazişlərin yerinə yetirilməsində məsuliyyət fransız hökumətinin üzərinə düşmür və bu sazişlər heç bir hüquqi dəyərə malik deyil. SİA xəbər verir ki, bu fikirlər Fransanın Azərbaycandakı səfirliyinin açıqlamasında yer alıb. Açıqlamada bildirilir ki, Fransa Minsk qrupunun həmsədri kimi Ermənistan və Azərbaycan arasında vasitəçilik səylərini qərəzsiz şəkildə aparacaq.

## "Forum bütün dünya üçün böyük əhəmiyyət daşıyır"



"Bakı Beynəlxalq Humanitar Forumu bir sıra məsələlərin müzakirəsi baxımından çox mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan forumda iştirak etdiyimdən məmnunluq duyuram". Bu fikirləri SİA-ya açıqlamasında Livanın NNA agentliyinin direktoru xanım Laura Süleyman deyib. Azərbaycanda humanitar əməkdaşlığa dair bir sıra tədbirlərin keçirildiyini deyən agentlik direktoru söyləyib ki, Forum problemlərin həllinin, inkişafın yollarının müzakirə edilməsi üçün mühüm platformadır.

L.Süleyman qeyd edib ki, dünyanı yalnız humanizm qoruya və xilas edə bilər: "Bu baxımdan müasir dövrdə belə mövzulara diqqət yetirilməsi çox önəmlidir. Azərbaycanın bu təşəbbüsünü alqışlayır və ölkənizin humanitar məsələlərə böyük diqqət yetirdiyinə görə təşəkkürümü bildirirəm".

# Hədə-qorxu ilə qanunsuz yollarla vəsaitlərin mənimsənilməsi yolverilməzdir

***İctimaiyyətin informasiya ilə təminatı, maarifləndirmə, hər zaman olduğu kimi, indi də öz aktuallığını qoruyur. Kütləvi İnformasiya Vasitələrinin bu istiqamətdə rolu, xüsusən, danılmazdır və cəmiyyətin sağlam mətbuata daim ehtiyacı var. Azəbaycan cəmiyyətinin daim hörmət və ehtiramla yad etdiyi Həsən Bəy Zərdabinin bizlərə miras qoyduğu ölkə mətbuatı bu vaxta qədər şərəfli yol keçib və bu yolu şərəflə davam etdirə bilməyənlər, ən qısa zamanda, sıralarımızı tərk edib. Elə indi də Azərbaycan mətbuatında bu yolu şərəflə addımlaya bilməyənlərə yer yoxdur.***

Kütləvi İnformasiya Vasitələrindən sui-istifadə hallarına yol verilirsə, bu, haqlı olaraq, ictimai qınağa səbəb olur. Mətbuatdan şəxsi mənafelər, şəxsi maraqlar, çirkin niyyətlər üçün istifadə qəbuledilməzdir və bu hallarla mübarizə aparılmalıdır. Mətbuat kimlərinsə maraqlarına xidmət etməməlidir və Kütləvi İnformasiya Vasitələrindən hansısa bəd niyyətlər və məqsədlər üçün istifadə edənlər cəzalandırılmalıdır.

## Təkcə mətbuat orqanlarına deyil, heç bir təşkilata hədə-qorxu yolu ilə vəsait tələb etmək haqqı verilməyib

Son zamanlar "realliq.info" saytının Azərbaycan mətbuatına yaraşmayan mövqeyi, şər və hədə-qorxu üzərində qurulmuş fəaliyyəti ictimaiyyətin diqqət mərkəzindədir və hiddəti də əbəs yerə deyildir. Məhz bu baxımdan, haqlı olaraq, sözügedən sayt qınaq obyektinə çevrilib. Çirkin yollarla,



hədə-qorxu ilə, ümumiyyətlə, qanunsuz yollarla vəsaitlərin mənimsənilməsi qanunla da yolverilməzdir. Təkcə mətbuat orqanlarına deyil, heç bir təşkilata, heç bir orqana, heç kimə belə hədə-qorxu yolu ilə vəsait tələb etmək haqqı verilməyib və bu hallar Azərbaycan Respublikasının Konstitusiyası ilə tənzimlənir.

İndi reket jurnalist deyilən bir ifadə formalaşıb və əslində, reketçiliyin mətbuata heç bir aidiyyatı yoxdur. Hədə-qorxu gəlməklə vəsait mənimsəmə faktına cəmiyyət çox rast gəlib və bu faktların heç də hamısına mətbuatda rast gəlinməyib. Ona görə də, reketçiliyin jurnalistika ilə əlaqələndirilməsi, ümumiyyətlə, belə bir ifadənin formalaşması cəmiyyətə ən yaxın olan bu peşəyə heç uyğun gəlmir. Bu dələduzluq əməlləridir və qanunla, ölkə qanunvericiliyi ilə tənzimlənir. Belə dələduzlar qanunun tələblərinə müvafiq şəkildə mühakimə olunur və cəzalandırılır.

## Ölkə mətbuatına ləkə vurmaq niyyəti xarici ssenarinin təzahürüdür

Təbii ki, bu tip əməllərin, məhz mətbuatda belə neqativ halların olması heç də təsadüfi deyil və sirr deyil ki, bunlar haradan qaynaqlanır. Maddi-texniki təminatı müəmmalı olan mətbuat səhifələrinin belə çirkin əməllərə imza atması, ölkə mətbuatına ləkə vurmaq niyyəti xarici ssenarinin təzahürüdür. Bu gün Azərbaycanın uğurlarına sevinməyən qüvvələrin ölkə mətbuatına belə ləkə vurmaqdan ötrü dəridən-qabıqdan çıxmalarını başa düşmək çətin deyil. Məhz həmin qüvvələr üçün satqınlığa meyilli olanlar, təbii ki, ən yaxşı vasitədir və onlardan istifadə etməyin ən asan yol olduğu qənaətindədirlər.

Digər tərəfdən, Azərbaycanın bu gün inkişaf dinamikası Soros kimi şər iblislərinin yuxusunu ərşə çəkib. İndi Cənubi Qafqazda mövqelərini möhkəmləndirmək, hadisələrə təsir mexanizmini gücləndirmək istəyənlər üçün Azərbaycanda da müəyyən vasitələr tətbiq etmək maraq dairəsindədir. Məhz şər iblisi dediyimiz qüvvələrin bu gün Ermənistanda at oynatdığı, hadisələri istədiyi məcraya yönəltdiyi bir durumda, Azərbaycanda bunu reallaşdıra bilməmələri də onlar üçün heç də arzuolunan deyil. Bu qüvvələr dərk edirlər ki, onların şər niyyətləri Azərbaycan üçün keçərli deyil və bu xalq heç də avantüraya meyilli olmayıb. Ermənistanda kütləni küçələrə çıxaranlar, hakimiyyət çevrilişinə vadar edənlər, nəticədə, sözügedən ölkəni çox çərin duruma salanlar, bunu Azərbaycanda tətbiq edə bilməyəcəklərini çox gözəl anladıqları üçün ən xırda detallarla belə manеələr yaratmağa cəhd edirlər. Amma dərk edə bilmirlər ki, buna da nail ola bilməyəcəklər. Çünki Azərbaycan cəmiyyəti xarici havadarların tikəsinə aldananlardan deyil.

Göründüyü kimi, hiyləgərliklə, hədə-qorxu ilə, ictimaiyyəti aldatmaqla nə mövcudluğu qorumaq mümkündür, nə də bu əməllərin sonu yoxdur. Öz çirkin əməlləri ilə mətbuata da daxil olanlar, gec-tez, rəzalətlə qarşılaşmalı olurlar. Hər sahədə olduğu kimi, mətbuatda da dələduzluq əməllərinə yol verənlər qanun və qanunvericilik qarşısında cavab verməlidirlər və bu əməllərin cəzasını çəkməkdən boyun qaçırmaq mümkün deyil.

***İnam HACIYEV***

# "Skandinaviya - Azərbaycan əlaqələrində gənclərin rolu"

Dünən Bakı Azərkitab Kitab Təbliğatı Mərkəzində "Skandinaviya - Azərbaycan əlaqələrində gənclərin rolu" mövzusunda konfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbiri giriş sözü ilə açan Gənc Politoloqlar Mərkəzinin sədri İlkin Əliyev bildirib ki, Gənc Politoloqlar Mərkəzi 1998-ci ildə yaranıb. Keçən müddət ərzində təşkilatımız bir çox layihələr həyata keçirərək gənclərin dövlətçilik, milli-mənəvi dəyərlər və hərbi-vətənpərvərlik tərbiyəsində aktiv iştirak etmişdir. Bu müddət ərzində dövlət və qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq edərək, Qeyri Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının və Gənclər Fondunun ayırdığı qrant layihələri əsasında respublikamızın ərazisində bir çox layihələr həyata keçiriblər".



Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Qafar Əliyev çıxışında deyib ki, Umaf Gənclər Təşkilatının sədri Siavosh Derakhti və Gənc Politoloqlar Mərkəzinin sədri İlkin Əliyevin təşkilatçılığı ilə İsveç krallığında, Norveçdə və ABŞ-da yaşayan 20-dən çox gənc Azərbaycan Respublikasına səfərə gəlib: "Bu səfərin təşkilatçılarının əsas məqsədi ilk öncə, Azərbaycanı tanıtmaq, gənc və müstəqil dövlətin yeritdiyi daxili və xarici siyasətin mahiyyətini, onun iqtisadi, turizm potensialını, tarixini, mədəniyyətini, idmanını, ən əsas isə gənclərin necə yaşamasını, təhsil almasını Avropa, Amerika və dünyanın başqa dövlətlərindən gəlmiş gənclərə öyrənməktən ibarətdir".

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib ki, 25 gəncin Azərbaycana səfər etməsi, burada iştirakı və ölkəmizdə görülən işləri öz gözləri ilə görməsi çox əhəmiyyətlidir: "Hesab edirəm ki, qarşılıqlı olaraq bizim gənclərin İsveçrəyə səfəri də çox əhəmiyyətli olacaq. Bu qarşılıqlı səfərlərin təşkil olunması gənclərin bilavasitə bu ölkələrlə daha yaxından təmasda olması, tanıması üçün əlverişli imkanlar yaradır. Düşünürəm ki, İsveçrədən gələn qonaqlar öz ölkələrinə Azərbaycanla bağlı xoş təəssüratla qayıdacaqlar. Hesab edirəm ki hər bir gənc orada Azərbaycanı təmsil edən gənclər kimi mühüm rol oynayacaqlar".

"SƏS" Media Qrupunun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev isə nitqində Azərbaycanın inkişafı, mətbuat sahəsinə dövlətin göstərdiyi diqqət və qayğıdan danışıb: "Sovetlər dövründə mətbuat kommunizm ideologiyasına xidmət etsə də, Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsindən sonra mətbuatımız milli düşüncənin və milli şüurun inkişafında mühüm rol oynamağa başladı. 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra isə mətbuatımızın inkişafında yeni mərhələ başlandı".

Baş redaktor qeyd edib ki, Ulu Öndərimizin əsasını qoyduğu bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin mediaya xüsusi diqqətlə yanaşdığını deyən B.Quliyevin sözlərinə görə, bunun nəticəsidir ki, Azərbaycan mətbuatının inkişafına dəstək məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradılıb. Fond ötən dövr ərzində mediaya dəstək verilməsi sahəsində mühüm işlər görüb.

Qurum rəhbəri əlavə edib ki, bu gün ölkədə söz və mətbuat azadlığı üçün heç bir manеə və təhlükə yoxdur, jurnalistlər istədikləri mövzunu açıq şəkildə cəmiyyətin diqqətinə çatdıra bilirlər: "Dövlətimizin başçısı son 15 ildə respublikada kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyət göstərməsi, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələri üçün bütün zəruri imkanlar yaradıb. Ölkə Prezidenti həmçinin, jurnalistlərin sosial problemlərinin həllini, eləcə də, mətbuatın maddi-texniki bazasının gücləndirilməsini daim diqqət mərkəzində saxlayır. Jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün təmənnasız olaraq yaşayış binalarının tikilib istifadəyə verilməsi, vaxtaşırı olaraq KİV-lərə maliyyə dəstəyinin göstərilməsi və s. faktlar fikrimizi sübut edir".

Daha sonra digər çıxış edənlər Azərbaycan Respublikasının yeritdiyi daxili və xarici siyasəti, olkəmizdə mövcud olan dini tolerantlıq və multikulturalizm mühitini, aparılan uğurlu iqtisadi, siyasi və hüquqi islahatların, eləcə də gənclər siyasətinin, Dağlıq Qarabağ probleminin mahiyyətini və danışıqlar prosesinin gedişini İsveç Krallığında yaşayan gənclərə çatdırmaq məqsədi ilə 2018-ci il oktyabrın 28 dən noyabrın 4-nə qədər 20-dən artıq gənclər təşkilatçılar tərəfindən Azərbaycan Respublikasına dəvət olunmasını yüksək qiymətləndirib və belə tədbirlərin keçirilməsini dəstəklədiklərini bildiriblər.

# "Gənc Blogger və Media Forumu"

## *YAP Gəncə şəhər təşkilatında bu mövzuda tədbir keçirilib*

***Gəncədə Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatı, "İslahatçı Gənclər" İctimai Birliyi və "Azxeber.com" İnformasiya Portalının birgə təşkilatçılığı ilə Gənc Blogger və Media Forumu həyata keçirilib.***

Tədbirdə Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev çıxış edərək, bu gün gənclərinin, hər sahədə olduğu kimi, virtual aləmdə, sosial şəbəkələrdə, informasiya sahəsində də fəallıq göstərdiklərini, dövlətin həyata keçirdiyi tədbirlərdə, eləcə də, Azərbaycanın üzləşdiyi problemlər haqqında məlumatların dünya ictimaiyyətinə çatdırılmasında yaxından iştirak etdiklərini diqqətə çatdırıb.



YAP Gəncə şəhər təşkilatı gənclər birliyinin sədri Yüksəl Məmmədov çıxışında bildirib ki, bu forumun Gəncə şəhərində keçirilməsi mühüm əhəmiyyət kəsb edir. O, qeyd edib ki, dünyada baş verən hadisələr gənclərin informasiya texnologiyalarının verdiyi imkanlardan səmərəli istifadəsini zəruri edir.

Tədbirdə çıxış edən "İslahatçı Gənclər" İctimai Birliyinin sədri Fərid Şahbazlı bildirib ki, hər ötən gün dünyada informasiya savaşı güclənir. İndi, artıq ayrı-ayrı dövlətlər və qüvvələr hərbi gücdən daha çox, informasiya gücünə baş vururlar. Bu isə, şübhəsiz ki, ölkələrin informasiya təhlükəsizliyinə təhdidlər yaradır.

"Azxeber.com" İnformasiya Portalının baş direktoru Əfsələddin Ağalarov vurğulayıb ki, qloballaşan dünyada informasiya texnologiyalarının, internet medianın sürətli inkişafı insanlara geniş imkanlar açır. Bu imkanlardan uğurla faydalanmaq üçün isə, gənclərin maarifləndirilməsinə mühüm ehtiyac var. Çünkü gənclər informasiya savaşında aktiv rol alırlar".

"Azxeber.com" İnformasiya Portalının baş redaktoru Hacıbəy Heydərli internet istifadəçilərinin sayının hər ötən gün artdığını və bunun da informasiya savaşında internet medianın rolunun yüksəlməsinə xidmət etdiyini qeyd edib.

Geniş diskussiya şəklində iki gün davam edən forumda gənclər maraqlı təkliflərlə çıxış edib, bu cür layihələrin keçirilməsinin əhəmiyyətini vurğulayıblar. Forumun sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

***Rövşən NURƏDDİNOĞLU***

# BSU səfirlərin görüşünə ev sahibliyi edəcək

***Dünən Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva Yunanıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolaos Kanellosu qəbul edib. Görüş zamanı N.Əliyeva BSU-nun xarici ölkələrlə əlaqələrinin genişlənməsindən, universitetdə fəaliyyət göstərən tədris-mədəniyyət mərkəzlərinin iş planlarından, tələbə-müəllim mübadilələrindən və s. danışıb.***



BSU rektoru universitetin Yunanıstan Respublikası ilə münasibətlərinin getdikcə dərinləşdiyini və bu məsələdə səfir Nikolaos Kanellosun xüsusi rol oynadığını vurğulayıb. N.Əliyeva yunan səfirinin öz simasında iki mühüm cəhəti - bir rəssam olaraq, yaradıcı insana məxsus keyfiyyətləri və sülh, barış çarçısı olan elçi xüsusiyyətlərini birləşdirdiyini vurğulayıb. O, səfirin BSU-ya xüsusi diqqətini, universitetdə təşkil olunan tədbirlərdə fəal iştirakını yüksək qiymətləndirib. BSU-da ötən il dekabrın 8-də yunan səfirinin vasitəçiliyilə keçirilən səfirlərin görüşünü minnətdarlıq hissi ilə yada salan rektor yenə də birlikdə tədbirlər keçirməyə hazır olduqlarını bildirib.

BSU rektoru bu günlərdə öz işini başa çatdırmış VI Bakı Beynəlxalq Humanitar Forumun ortaya qoyduğu vəzifələrin reallaşması istiqamətində BSU-da "Modern dünya, modern insan" mövzusunda geniş formatlı bir tədbir keçirməyi təklif edib. O, universitetin belə bir tədbirə ev sahibliyi etməyə, onun bütün təşkilati məsələlərini həll etməyə hazır olduğunu bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən Yunanıstan Respublikasının səfiri Nikolaos Kanellos BSU rektorunun təklifini dəstəkləyərək, tədbirin canlı dialoq şəklində aparılmasının tərəfdarı olduğunu vurğulayıb. O, tədbirdə təhsil, müasir siyasət, onun cəmiyyətlərə təsiri mövzularının müzakirəsinin gənclər üçün əhəmiyyətli ola biləcəyini deyib. Nikolaos Kanellos belə bir tədbirdə Azərbaycanda fəaliyyət göstərən səfirlərin iştirakını təmin etmək üçün vasitəçilik missiyasını yerinə yetirməyə hazır olduğunu bildirib.

Görüşün sonunda qərara alınıb ki, tədbirin 27 noyabr - 3 dekabr tarixləri arasında keçirilməsi müəyyən olunsun. Görüşün təşkili ilə bağlı digər məsələlər beynəlxalq məsələlər üzrə prorektor, professor Sahibə Qafarovaya həvalə edilib.

***ZÜMRÜD***

# Biznes qurmaq istəyən gənclərə "Bakcell"dən növbəti dəstək

***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası İctimai Birliyinin himayəsində böyümüş və digər internat müəssisələrindən məzun olmuş gənclərin biznes ideyalarını reallaşdırmaq məqsədilə maliyyə vəsaiti ayırmağa davam edəcək.***

Bu istiqamətdə həyata keçiriləcək növbəti layihə çərçivəsində gənclər üçün müvafiq təlimlər keçiriləcək, ən yüksək nəticələr göstərən biznes layihələr isə "Bakcell"dən maliyyə dəstəyi alacaq.

Qeyd edək ki, ötən il ilk dəfə "Bakcell"in dəstəyi sayəsində icra olunan "Gənclərin Karyera və İnkişaf Mərkəzi" layihəsində iştirak edən 3 nəfər gənc öz kiçik biznesini qurmaq imkanı əldə edib. Bunun üçün 15 nəfər gənc "SOS Uşaq Kəndləri - Azərbaycan" Assosiasiyası tərəfindən təşkil olunan "Öz biznesinə başla və təkmilləşdir" adlı təlimlərdə iştirak edib. Qiymətləndirmə nəticəsində ən yüksək nəticələr nümayiş etdirən 3 uğurlu biznes layihəsi Bakcell şirkəti tərəfindən maliyyələşdirilib.

Layihənin uğurlu nəticələrini nəzərə alaraq Bakcell şirkəti gənclərin biznes ideyalarını reallaşdırmağa yönəlmiş fəaliyyətini davam etməyə qərara alıb. Təlimlərdə uğurla keçən gənclər biznes plan hazırlayaraq onu qiymətləndirməyə təqdim edəcəklər. Qiymətləndirmə zamanı biznes planın düzgün hazırlanması, ideyanın real bazar şərtlərində özünü doğrultma perspektivi, müraciət edənin təcrübəsi və sosial durumu nəzərə alınacaq.

"Bakcell şirkətinin həyata keçirdiyi geniş-miqyaslı korporativ sosial məsuliyyət proqramının əsas istiqamətlərindən biri də ölkəmizdə xüsusi qayğıya ehtiyacı olan uşaq və gənclərin təhsili, bacarıqlarının artırılması, gələcəkdə iş qura bilmə qabiliyyətlərinin təmin edilməsi və sosial rifahının yaxşılaşdırılmasıdır. Sevindirici haldır ki, bu əməkdaşlıq davamlı xarakter daşıyır və biz gənclərimizin böyük uğurlara imza atmasına dəstək göstərməkdən qürur duyuruq", deyə Bakcell şirkətinin İctimaiyyətlə Əlaqələr və Korporativ Kommunikasiyalar Departamentinin rəhbəri Süheylə Cəfərova bildirib

Xatırladaq ki, Bakcell şirkəti 2009-cu ildən etibarən "SOS Uşaq Kəndləri-Azərbaycan" Assosiasiyası İB ilə əməkdaşlıq çərçivəsində valideyn himayəsindən məhrum olmuş və aztəminatlı ailələrdən olan uşaq və gənclərə öz dəstəyini göstərir.

# Boltonun səfəri və ermənilərin pəjmürdəliyi

## *Modest Kolerov: "Bu, Paşinyan üçün birinci ciddi problemdir"*

***ABŞ prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Cənubi Qafqaza səfəri çərçivəsində onun Gürcüstan və Azərbaycandan fərqli olaraq, Ermənistanı barmaq arasında görməsi erməni mediasında ciddi narahatlığa səbəb olmaqdadır. O cümlədən, amerikalı siyasətçinin Ermənistanda səsləndirdiyi bəyanatları da, işğalçı ölkə mediasını yerindən oynadıb. "SƏS" qəzeti olaraq, sözügedən mövzu ilə bağlı bir neçə informasiyanı bölüşürük.***

### "Regnum İA"-nin rəhbəri: "ABŞ Paşinyandan xidmət haqqını istəyib"



Ermənistana yaxınlığı ilə tanınan və Rusiyada fəaliyyət göstərən "REQNUM İnformasiya Agentliyi"nin baş redaktoru, eyni zamanda, Rusiya Federasiyasının I dərəcəli dövlət müşaviri Modest Kolerov "168 jam" qəzetinin müxbiri ilə söhbətində ABŞ prezidentinin Milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun Ermənistana səfərini şərh edib". Bu barədə adıçəkilən erməni nəşrində bildirilir. "Bolton Ermənistanda verdiyi bəyanatı Paşinyana ünvanlanıb" deyə qeyd edən Modest Kolerov hesab edir ki, amerikalı siyasi ABŞ-ın konkret addımları vasitəsi ilə, bilavasitə Paşinyanın göstərdiyi xidmətinə görə, xidmət haqqını istəyib: "ABŞ ona siyasi cəhətdən kömək etdi, indi də Paşinyan praktiki fəaliyyəti ilə onlara ödəniş etməlidir. Misal üçün, Qarabağ münaqişəsinin həll olunması prosesində dinamiklik göstərərək, bunu amerikalıların təşəbbüsü kimi təqdim etmək".

Kolerova görə, Nikol Paşinyan Birləşmiş Ştatlar qarşısında borclu qalıb və ona bu borcu qaytarmağın vacibliyini xatırladıblar.

### "Nikol nə isə etməyə məcbur olacaq"

"Əgər hər şey necə gedirdisə və eləcə də davam edərsə, Qarabağ münaqişəsinin əvvəlki sxem üzrə həlli məsələsinin qeyri-mümkünsüzlüyü daha da gərginləşəcək. Nikol nə isə etməyə məcbur olacaq. Bu, onun üçün birinci ciddi problemdir" deyə rusiyalı siyasi bildirib.

Rusiyaya gəlincə, Modest Kolerovun sözlərinə görə, ölkəsi baş verən hadisələrə müdaxilə etməyəcək və sadəcə, olayları izləməklə kifayətlənəcək. "Moskvanın Paşinyanla hərbi sahədə dialoqu kifayət qədər olub" deyə qeyd edən rus ekspert, artıq buna ehtiyacın duyulmadığına eyham vurub.

### Suren Sarkisyan: "Ermənistan ABŞ-ın maraqlarında prioritet rol oynamır"



"Boltonun səfəri çərçivəsində bir çox bəyanatlar səsləndi, eyni zamanda, görüşlər keçirildi ki, bunlar da, ABŞ-ın prioritet siyasəti haqqında aylardır, danışdığımız sözlərin təsdiqi oldu". Bu barədə isə, erməni siyasi analitiki, beynəlxalq məsələlər üzrə ixtisaslaşmış ekspert Suren Sarkisyan "Iragir.am" saytına müsahibəsində bildirib.

"ABŞ-ın regionda öz maraqları mövcuddur və təəssüf ki, Ermənistan burada prioritet rol oynamır" deyə qeyd edən Sarkisyan prioritetlik məsələsində imperativ olaraq, Gürcüstanın və Azərbaycanın olduğunu bildirib: "Bolton Gürcüstanla Azərbaycanın ABŞ-ın strateji maraqlarını bölüşdüyünü deyib, Ermənistan isə, sadəcə, prioritetdir" deyə ölkəsinin Birləşmiş Ştatlar üçün önəm kəsb etmədiyini qeyd edən erməni ekspert xatırladıb ki, bütün ölkələr ABŞ tərəfindən prioritet olaraq görülür. Belə ki, Birləşmiş Ştatlar bütün komponent və atributları ilə superdövlətdir. "Hesab edirəm ki, bizim nə isə barədə düşünmək zamanımızdır" deyə Suren Sarkisyan bildirib.

### Erməni ekspert: "ABŞ-Azərbaycan münasibətləri yüksək səviyyədə inkişaf edib"

Erməni siyasi eksperti Azərbaycanın ABŞ-la münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini də bildirərək deyib: "Düşünürəm ki, Azərbaycan Con Bolton üçün əla mövqedir, ona görə ki, Azərbaycan ABŞ-a Əfqanıstan məsələsində çox böyük dəstək göstərir və bu, Vaşinqton tərəfindən yüksək dəyərləndirilir. Bu planda bizim qarşımızda ciddi vəzifələr dayanır, ona görə ki, hazırda təsir etmək gücündə cəmiyyətimiz olan ABŞ kimi superdövlətlə münasibətlərimiz Ermənistana heç bir səmərə vermir. Gürcüstana və Azərbaycana səfərlər, əlbəttə ki, vacib idi. O, səfəri çərçivəsində ayrı-ayrılıqda müdafiə və xarici işlər nazirləri ilə görüşlər keçirdi, Ermənistanda isə eyni vaxtda müdafiə, xarici işlər nazirləri, eləcə də, milli təhlükəsizlik şurasının katibi ilə görüşdü. Bu da bir markerdir. ABŞ administrasiyası qeyd-şərtsiz ABŞ-ın maraqlarını praqmatik şəkildə irəli sürür və Bolton aşkar şəkildə göstərdi ki, prioritet olaraq, Gürcüstan və Azərbaycanı görür, Ermənistan isə sonraya qalır..."

"Ermənistan prioritetliyi üçün nə etməlidir" sualını da cavablandıran erməni beynəlxalq eksperti təşəbbüslərlə çıxış etməyin və aktiv siyasət yürütmətin vacib olduğunu deyib. "Əks halda, biz dağılmış çanaq qarşısında qalacağıq" deyə Sarkisyan etiraf edib.

***Rövşən RƏSULOV***

# Ermənistan bütün dünyanın hədəfinə çevrilir

***Ermənistanda səfərdə olan ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Con Boltonun Yerevanda keçirdiyi mətbuat konfransında çıxışı bir çox istiqamətlərdə eyham xarakterlidir. Lakin işğalçı dövlət bu çıxışı öz mənafelərinə uyğun şəkildə yozmağa və yenə də təbliğat üçün istifadə etməyə çalışır.***

C.Bolton işğalçı dövlətə saysız-hesabsız mesajlar verməkdə davam edir və bu mesajlar, əslində, təmsil etdiyi dövlətin mövqeyini açıq-aşkar üzə çıxarır. Məsələn, Con Boltonun "Paşinyan münaqişənin həllində həlledici addım atmalıdır" deməsi, ABŞ-ın Ermənistana, Nikol Paşinyanın özünə münaqişəni uzatdıqları barədə iradıdır. Görünür, ABŞ da artıq ermənin uzatdığı bu münaqişədən, siyasi oyunbazlığından tamamilə bezib. D.Trampın özünün rəhbərlik etdiyi dövlətlə bağlı qayğıları azdırmı ki, bu kiçik bir toplumun, tarixi, kökü, məskunlaşdığı torpağı, ərazisi belə olmayanların, onların hər cür hiyləyə əl atan lobbilərinin hələ də nazı ilə oynayır.

"Münaqişənin nizamlanmasında, ilk növbədə, münaqişə tərəflərinin özləri maraqlı olmalıdır" deyən C.Bolton, ABŞ-ın Ermənistan tərəfinin bu məsələnin həllinə maraq göstərmədiyinin fərqində olduğunu da dolayısı ilə çatdırır. Əksini fərz etmək mümkün belə deyil. Çünki ABŞ da daxil olmaqla, bütün dünya ictimaiyyəti çox gözəl bilir ki, münaqişənin həllində, Dağlıq Qarabağın işğaldan azad edilməsində, işğal edilmiş torpaqlarımızın geri qaytarılmasında, ərazi bütövlüyümüzün təmin edilməsində Azərbaycan tərəfi nə dərəcədə maraqlıdır. Hər bir beynəlxalq tədbirdə, istənilən platformada belə Azərbaycan tərəfi Qarabağ məsələsini gündəmə gətirdiyini də təsdiq edir ki, bu münaqişənin həll edilməsi ölkəmiz üçün ən prioritet məsələ hesab olunur. Belə olan halda, münaqişənin həllinə maraq dedikdə, C.Bolton, təbii ki, Ermənistan tərəfini nəzərdə tutur və xatırladır ki, artıq geosiyasi oyunbazlığı yekunlaşdırmaq, bu məsələnin həllinə daha ciddi yanaşmaq və maraq göstərmək lazımdır.

## Con Boltonun Ermənistana səfərinin mahiyyəti işğalçı dövlətə xəbərdarlıq xarakteri daşıyır

ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi özü ilə yeni həll təklifləri gətirmədiyini desə də, Ermənistana, şəxsən Paşinyana öyüd də verib. Əslində, bu, elə dolayı yolla yeni təkliflər deməkdir. C.Boltonun vasitəsilə ABŞ Ermənistana təklif edir ki, xarici təzyiqin azaldılması üçün işğalçı dövlət Dağlıq Qarabağ münaqişəsinin həllini təmin etsin. Təklif etməkdən də əlavə, xatırladır ki, münaqişə tərəfləri hər bir şey barədə müzakirə aparmalı və danışmalıdırlar. Hətta həll təklifi ilə gəlmədiyini, tərəflərin özlərinin bu münaqişənin həllində maraqlı olmalı olduğunu bəyan edən



Boltonun bəzən israr etdiyi qabarıq şəkildə özünü büruzə verir. Məsələn, Trampın köməkçisi Ermənistanın baş naziri səlahiyyətlərini icra edən Nikol Paşinyandan Qarabağ münaqişəsinin həlli üzrə konkret addımlar atmağın vacibliyini də gizlətmir. Siyasi partiyasının da güclü mandat əldə edəcəyi təqdirdə, Paşinyana münaqişənin nizamlanması məsələsində həlledici addımların atılması üçün yaxşı imkan olacağını da indidən xatırladır. Bununla onun diqqət mərkəzində olduğunu da nəzərinə çatdırır və bir növ, bu, ABŞ-ın Paşinyana xəbərdarlığıdır ki, proseslərə dəstəyi yalnız bu şərt daxilində ola bilər.

Məsələ burasındadır ki, Ermənistanın Kütləvi İnformasiya Vasitələri bütün bunlara yenə də don geyindirir. Daha dəqiq desək, nəinki don geyindirir, hətta hadisələrdən təbliğat üçün də istifadə edirlər. C.Boltonun səfərini daha fərqli şəkildə şərh edir, daxili auditoriyaya hesablanmış fikirlərlə Ermənistan ictimaiyyətini aldadırlar. Bu səfəri ABŞ Ermənistan münasibətlərinin inkişafı kimi qələmə verir və fövqəldövlətin dəstəyi kimi təqdim edirlər.

Ermənistana məxsus "panarmenian.net" saytında ABŞ-la münasibətləri daha yeni bir səviyyəyə yüksəltmək iddiaları barədə yazılar gedir. Daha doğrusu, yalan informasiyalarla, təhrif olunmuş fikirlərlə ictimaiyyət aldadılır. Yenə də Ermənistana məxsus "lragir.am" saytında Tramp administrasiyasının Ermənistanla münasibətləri prioritet hesab etdiyi barədə yalan informasiyalar, təbliğat xarakterli yazılar və informasiyalar verilir. Bu yazıların, sadəcə, təbliğat xarakterli olduğuna zərrə qədər şübhə ola bilməz. Heç kim üçün artıq sirr deyil ki, C.Boltonun Ermənistana səfərinin ABŞ-Ermənistan münasibətlərinə zərrə qədər aidiyyatı yoxdur. Sadəcə, Qafqazın strateji bir məkan olduğunu, həmin strateji məkanda Azərbaycanın günü-gündən inkişaf etdiyini, gücləndiyini, qüdrətinin artdığını, söz sahibinə çevrildiyini görməsi və qəbul etməsi zərurətindən doğan bu səfərdə fövqəldövlətin məqsədi sözügedən strateji ərazidə mövqeyini təyin etmək üçün Ermənistandan istifadə etməkdir. Ermənistana məxsus "news.am", "1in.am" və digər xəbər portallarında da analoji şəkildə şərhlərə, dezinformasiyalara, şişirdilmiş və təhrif olunmuş informasiyalara rast gəlinir ki, bütün bunlar, mahiyyət etibarı ilə Ermənistanın, məhz Paşinyanın daxili auditoriyaya hesablanmış təbliğatı, bu təbliğat üzərində qurulmuş uğursuz siyasətidir. Təbii ki, Ermənistanın nə düşündüyü Azərbaycanı, eləcə də, bütün dünyanı zərrə qədər maraqlandırmır. Bütün dünya terrorçuluqdan, separatçılıqdan xilas olmağa, təhlükəsizliyin təmin olunmasına maraqlıdır ki, Ermənistan bu maraqların təmin olunmasına maneçilikdən başqa bir mövqe tutmur. Məhz buna görə də, işğalçı dövlət nə qədər ki, münaqişənin həllinə maraq göstərməyəcək, mane olacaqsa, heç şübhəsiz ki, dünyanın hədəfinə çevriləcək. Hadisələrin gedişi, onu deməyə əsas verir ki, Ermənistan artıq bütün dünyanın hədəfinə çevrilir.

***İnam HACIYEV***

***Rusiyanın vassalı olan Ermənistanda hadisələrin qarışıq formada cərəyan etməsi və baş verənlərə rəsmi Moskvanın susqunluq göstərməsi müəyyən suallar doğurur. Söhbət etdiyimiz müsahiblərimiz bunun səbəbini işğalçı ölkənin Rusiya üçün dəyərsiz və əhəmiyyətsiz dövlətə çevrilməsi ilə əlaqələndirdilər.***

### Millət vəkili Eldəniz Səlimov: "Paşinyan ağlına nə gəldi onu etməyə çalışır"



- Paşinyanın əlində heç bir proqram olmadığı üçün, hakimiyyət sürüşkən bir struktura çevrilmişdir. Bundan istifadə edən Sarkisyan və Koçaryan öz tərəfdarları vasitəsi ilə aksiyalar keçirirlər. Ermənistanda hakimiyyət uğrunda aparılan mübarizə ölkədə qarşıdurma yaradıb. Burada müxalifət daha çevik mübarizə aparır. ment seçkilərini keçirmək istəyir və buna nail oldu. Yəni sözügedən seçkilərin keçirilməsi ilə bağlı vaxt müəyyənləşdirildi və artıq bu seçkilər keçiriləcəkdir. Bununla belə, Sarkisyan və Koçaryan qrupu da, başa düşürlər ki, Paşinyan özünü tam legitimləşdirəndən sonra, heç şübhəsiz ki, ilk növbədə, bütövlükdə, bu klanın tamamilə fəaliyyətinə son qoymasına çalışacaqdır. Necə ki, Paşinyan elə müvəqqəti baş nazir vəzifəsini icra edərkən belə, bu istiqamətdə mühüm addımlar atmışdır. Yəni cinayət işi qaldırmışdır, eyni zamanda, Sarkisyan və Koçaryan qrupuna daxil olan şəxslər, onların qohumları həbs edilmiş və vəzifədən uzaqlaşdırılmışdır. Yəni bu proses davam edəcəkdir. Ona görə də, Sarkisyan və Koçaryan ciddi şəkildə Paşinyana müqavimət göstərirlər. Ya onlar hər şeylərini itirəcəklər, ya da bu müqavimət nəticəsində, müəyyən təsir imkanlarını saxlayacaqlar. Məhz buna görə də, onlar hər şeyə əl atmağa hazırdırlar. Çünki bu, onlar üçün ölüm-dirim məsələsidir. Sarkisyan və Koçaryan rejimi hərbi xunta idi və Ermənistan tam olaraq boşalmışdır. Paşinyan isə, müəyyən dairələrin təsiri altında olan bir şəxsdir. Yəni Paşinyan hər hansı ciddi bir nailiyyətlər əldə etmək imkanına malik deyil. Həm iqtisadi vəziyyətin pisləşməsi, həm də Ermənistanın Azərbaycana münasibətdə işğalçılıq siyasətini davam etdirəcəkdir. Torpaqları azad etməyənə qədər, şübhəsiz ki, onlar yenə də əsas layihələrdən kənarda qalacaqlar. Ermənistanda yoxsulluq fəlakətli şəkildə davam edəcəkdir. Belə olan halda da, Ermənistanın getdikcə boşalması prosesi də davam edəcəkdir. Yalnız iqtisadi inkişaf, o zaman mümkün olacaqdır ki, Ermənistan işğalçılıq siyasətindən əl çəksin və torpaqları azad etsin.

## Qarşıdurma Ermənistanın məhvini tezləşdirəcək

Paşinyan isə ağlına nə gəldi onu etməyə çalışır. İkinci bir tərəfdən isə, xarici qüvvələrin maraqları toqquşur. Əzilən isə xalqdır. Ermənistanda baş verən hadisələr, onu deməyə imkan verir ki, vətəndaş qarşıdurmasına zəmin yaranıb. Ermənistanda baş verən hadisələrə Rusiyanın seyrçi qalması heç də təsadüfi deyil. Paşinyanın siyasətinin nəticəsində, Rusiyaya münasibət xeyli zəifləyib. Bu baxımdan, Rusiya dövləti, hələ ki, gözləmə mövqeyində durur. Təbii ki, Rusiyanın da maraqları var, Ermənistandakı hadisələrə. Baş verən qarışıqlıqdan xarici qüvvələr daha çox ustalıqla istifadə edir. Seçkilər yaxınlaşdıqca, gərginlik daha da artacaq, qarşıdurma güclənəcək, güclü tərəf bundan istifadə edərək, seçkidə qalib gələcək.

### Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, İnsan Haqları üzrə Birgə Qrupun üzvü Əliməmməd Nuriyev: "Sarkisyan və Koçaryan ciddi şəkildə Paşinyana müqavimət göstərirlər"

- Bildiyimiz kimi, Ermənistanda inqilab baş verdi və bu inqilab nəticəsində də, Sarkisyan və onun yaxınları hakimiyyətdən uzaqlaşdırıldı. Doğrudur, hələ ki, onların



hakimiyyətə təsir etmək rıçaqları var. Çünki parlamentin əksəriyyəti onların əlindədir. Bildiyiniz kimi, artıq Ermənistanda parlament seçkiləri təyin olunub. Burada Paşinyan başa düşür ki, əgər parlament seçkilərini uzatsa, getdikcə onun reytinqi daha aşağı düşəcəkdir və beləliklə də, o, məğlub olacaqdır. Ona görə də, o, daha tez parla-

### Politoloq Qabil Hüseynli: "Seçkilər Ermənistan üçün çox çətin və ağır olacaqdır"

- Bildiyiniz kimi, Ermənistanda siyasi böhran vəziyyəti davam edir. Demək olar ki, Paşinyanın əvvəlki reytinqi aşağı düşüb. Xüsusən də, bölgələrdə keçirilən 3 bələdiyyət seçkisində onun namizədi İrəvandakı qədər səs qazana bilməmişdir. İrəvanda, ən azı 12 faiz az səs qazanıblar. Bu da, onu göstərir ki, əyalətlərdə əhval- ruhiyyə xeyli dərəcədə dəyişir. Koçaryan müəyyən qədər passivdir. Sanki bu proseslərdə iştirak etmir. Amma Sarkisyanın Respublika Partiyası xeyli fəaldır və onlar seçkilərdə də aktiv iştirak edəcəklərini bildiriblər. Amma Daşnaqsyutyun və "Çiçəklənən Ermənistan" partiyaları Paşinyanın "Bizim addımlar qrupuna bir növ meyillənmiş kimi görünürlər. Ola bilsin ki, seçkilərdə bir blokda iştirak etsinlər. Amma bütün bunlara baxmayaraq, seçkilər Ermənistan üçün çox çətin və ağır olacaqdır. Onun nəticələri cəmiyyəti parçalaya bilər və cəmiyyətdə müxtəlif yönümlü qüvvələrin və qrupların əmələ gəlməsinə gətirib çıxara bilər. Bu baxımdan, Ermənistanda sözügedən seçkilər yaxınlaşdıqca Paşinyanın reytinqi də aşağı düşür.



***GÜLYANƏ***

# Ermənixislət Leyla Yunus, görəsən, indi nə istəyir?

*Çingiz Qənizadə: "Bütün ömrü boyu anti-Azərbaycan fəaliyyəti ilə tanınan Leyla Yunus yenə də öz ampluasındadır"*

***"Sülh və Demokratiya İnstitutu"nun rəhbəri Leyla Yunus yenə də köhnə ampluasındadır. Elə bu günlərdə Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının aktiv iştirakçılarından olan "Amnestye İnternational"ın "siyasi məhbus"la bağlı qərəzli çağırışına səs verən L.Yunus yenə də vətən xaini, satqın, ermənilərlə iş birliyi qurduğunu bir daha nümayiş etdirdi. Belə ki, əslində, L.Yunusun kim olduğunu, hansı əməllərə sahiblik etdiyini, hansı dairələrə xidmət etdiyini xatırlatmağa ehtiyac yoxdur. Leylanı bütün dünya tanıyır. O, daxilində yaşadığı, çörəyini yediyi dövlətə və xalqa qarşı patoloji nifrət formalaşıbdır.***

L.Yunus müxtəlif vaxtlarda başqa anti-Azərbaycan layihələrinə də imza atıb. Məsələn, bir müddət öncə, o, ermənilərlə iş birliyinə imza atmışdı. Özünü "hüquq müdafiəçisi" kimi qələmə verən bu şəxs Böyük Britaniyanın Azərbaycan və Ermənistandakı səfirliklərinin dəstəyi ilə ermənilərlə birgə yeni sayt yaratdı. Layihə Ermənistandakı "Region" Araşdırma Mərkəzi ilə birgə icra olunur.

Azərbaycanın Müdafiə Nazirliyinin Analitik İnformasiya şöbəsinə rəhbərlik etmiş bu xanım həmin illərdə müdafiə naziri Rəhim Qazıyevin "sağ əli" hesab olunurdu. O vaxt Azərbaycanın başına açılan oyunlar, R.Qazıyevin Qraçovla anlaşması, sonradan Sürət Hüseyno-



vun qiyamına dəstək verməsi heç kimin yadından çıxmayıb. Sonrakı dövrlərdə siyasi fəaliyyətə cəhd edən L.Yunus bundan bir şey çıxmayacağını görüb, özünü "hüquq müdafiəçisi" kimi sınamağa qərar verdi. Azərbaycanda "siyasi məhbus" məsələsinin şişirdilməsi və hakimiyyətə qarşı təzyiq rıçağına çevrilməsi də onun "xidmətləri" sırasındadır. L.Yunusun hazırladığı "siyasi məhbus" siyahıları bu gün də Azərbaycana təzyiq üçün əllərdə gəzir.

## Erməni xislətli satqın Leyla Yunus indi nə istəyir?

Bəs görəsən, L.Yunus bu addımları ilə nəyə nail olmaq istəyir?

Milli Məclisin Hüquq Siyasəti və Dövlət Quruculuğu Komitəsinin üzvü Çingiz Qənizadə bildirib ki, L.Yunusun məqsədi bəllidir və o, Azərbaycanla bağlılığı olmayan bir adamdır.: "O, heç vaxt Azərbaycan dövlətini, hakimiyyətini və xalqını qəbul etməyib. L.Yunus Azərbaycanda hakimiyyətdə kimin olmasından asılı olmayaraq, heç bir halda dövləti, onun rəsmilərini sevən bir insan olmayıb. Onun yeganə məqsədi varlanmaq olub. Bunu da, qeyri-hökumət təşkilatı olaraq, xaricdən müəyyən maliyyə vəsaiti almaqla, onların sifarişi əsasında Azərbaycana, onun siyasi rəhbərliyinə və hakimiyyət qollarına böhtan atmaqla həyata keçirib. Beləliklə də, həmin maliyyə mənbələrini öz məqsədi üçün istifadə edib. Bilirik ki, hələ burada olarkən, xaricdən aldığı qrantlar hesabına bir neçə mənzil və ofis alıb. Bu faktı vaxtilə digər vətəndaş cəmiyyəti institutlarının rəhbərləri də qeyd etmişdilər".

Deputat qeyd edib, Azərbaycan-Rusiya münasibətlərinin dostluq istiqamətində artan inkişafı Ermənistanı narahat etdiyi kimi, erməniləri sevən L.Yunus kimilərini də narahat etməyə başlayıb: "Onlar erməni dostlarının və qardaşlarının siyasi xəttinə uyğun olaraq, Azərbaycanla Rusiya arasında hansısa bir formada şübhə toxumu səpmək, nifaq salmaq yolunu tutublar. İndi də Leyla Yunus Rusiyanın hansısa bir mətbuat orqanında Azərbaycanda müstəqil məhkəmə hakimiyyətinin, mətbuatın, qeyri-hökumət təşkilatının olmaması ilə bağlı yalan, iftira və böhtan dolu fikirlərini bildirir. Məqsəd aydındır, hədəf Azərbaycan dövlətidir, siyasi hakimiyyətidir və xalqımızdır. Çünki Azərbaycan siyasi hakimiyyətini xalq formalaşdırır. Bu adamın yeganə məqsədi Azərbaycan dövləti və xalqına qarşı qarayaxma kampaniyasında iştirak etməklə, xaricdən daha çox maliyyə vəsaiti almaq və özünün şəxsi varidatını artırmaqdır".

**R.HÜSEYNOVA**

# "Nar"-ın "Yerlim" tarifini seçənlərin sayı artmaqdadır

***"Nar"-ın "Yerlim" tarifinə qoşulanların sayı son 1 il ərzində 43 % artıb. Xüsusi olaraq bölgələr üçün nəzərdə tutulan "Yerlim" tarifinə qoşulanların daim artması bu tarifin bölgə sakinləri üçün sərfəli olması ilə əlaqədardır. Bölgələrdə yaşayan abunəçilər bu tarifə qoşulmaqla dəqiqəsi 1 qəpikdən zəng edə bilirlər.***

Mobil operatorlar arasında paytaxtla yanaşı, ölkənin regionlarına göstərdiyi diqqətilə seçilən "Nar" yeni istifadəyə verdiyi baza stansiyaları sayəsində öz bölgə tarifinin istifadəçilərinin sayını əhəmiyyətli dərəcədə artırmağa nail olub. 4G və 3G baza stansiyalarının sayını sürətlə artıran "Nar" Azərbaycanın ən ucqar kəndlərini belə mobil rabitə xidmətlərilə təmin etməkdədir.




Mobil operator 2018-ci il ərzində bölgələrdə 330-dan çox yeni baza stansiya qurub. Qurulan yeni stansiyaların 230-a yaxın 4G, 100-dən çoxu isə 3G baza stansiyasıdır. Ümumilikdə "Nar" 2018-ci ildə ölkənin 40-dan çox rayon və şəhər mərkəzlərində yüksək sürətli 4G texnologiyasının tətbiqinə nail olub. "Yerlim" tarifi haqqında ətraflı məlumatı https://www.nar.az/yerlim internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.



**Təhmasib Novruzov**

# Qazanla çömçənin təp-təzə nağılı

***Klassiklərimizin tez-tez müraciət elədikləri bir ədəbi janr var. Adına da alleqorik janr deyirlər. Yəni insanlara, cəmiyyətə aid olan bir sıra mətləbləri heyvanların, bitkilərin, əşyaların dili ilə canlandırıb, insanlara mesajlar göndəriblər. Böyük klassikimiz Məhəmməd Füzulidən tutmuş XX əsr yazarlarımıza qədər əksər şair və yazıçılarımız bu janra müraciət ediblər. Bu, bəzən rejimlərdən qorunmaq məqsədi daşısa da, hesab edirəm ki, əksər hallarda deyimlərin bədii və fəlsəfi təsir gücünün artırılmasına xidmət məqsədi güdüb.***

Məsələn, gözəl-göyçək müxalifət liderlərimizdən olan Əli Kərimlidən ha yazırsan, ha deyirsən, zalım oğlu, üzünə durub, əməllərindən əl çəkmir ki, çəkmir. Keçmişindəki biabırçı faktları açıq-aydın deyirsən, C.Cabbarlının qəhrəmanı Şərifin dili ilə desək, "sübutalnı, dokumentalnı" millətə vurduğu zərərləri qoyursan qarşısına, düşünürsən ki, yəqin daha çıxıb böyük-böyük danışmağa üzü olmaz. Amma harda? Üstündən az keçməmiş, yenə başlayır sosial şəbəkələrdə özünü mələk donunda təqdim eliyə-eliyə camaata ağıl verməyə. Siyasətçi olanda noolar, adamın bir az da olsa utanması, ayıb bilməsi gərəkdir axı! Mən də çox düşünüb-daşındım, sonda qərara gəldim ki, bu dəfə alleqoriya janrı ilə bir-iki söz deyək, bəlkə dabbaqdan bələd olduğumuz qurdlu göndən toxunmuş kürkünə, az da olsa, birə darışdıra bildik və elə o saat da yadıma məşhur bir atalar məsəli düşdü (Ax, zavallı atalar, bisəydiniz, yaratdığınız müdrik kəlamlara bu gün cəmiyyətimizin nə qədər ehtiyacı var!..). Yəqin bu məsəli hamı eşidib: "Qazan dedi dibim qızıldı, çömçə dedi yalan danışma, gəzib gəlmişəm". İndi bir anlıq təsəvvür edək ki, Əli Kərimli qazandı (Qazan xan yox e... Mətbəxdəki xörək bişirilən qazan). Qaşıq, çəngəl, bıçaq, boşqab və digər mətbəx əşyalarını yığıb bir yerə, sahibindən xəlvəti toplantı keçirir. Qab-qacaqlar da onun gözəl-gözəl sözlərinə qulaq asıb, feyziyab olurlar. Məsələn, qazan (Yəni Əli bəy) deyir ki, bu ev sahibi bizi istismar eliyir. Qoyur məni yanar ocağın üstünə, gedib oturub televizora baxır. Arada gəlir, yağı tökür başımızdan, soğandan, kartofdan, düyüdən, vermeşildən, daha nə bilim, əlinə gələndən tökür başımıza, onlar da başlayır çırthaçırt yanmağa. Nə yaxşı ki, mənim dibim qızıldandı, qızılın hesabına birtəhər özümü qoruyuram. Sora da, götürüb boşaldırlar bir böyük kasaya, o başlayır istidən od tutub yanmağa. Ordan da boşaldırlar xırda boşqablara, əllərinə alırlar qaşığı, çəngəli, bıçağı, başlayırlar bizi yandıra-yandıra bişirdiklərini həzm-rabedən keçirməyə. Mən bütün bunları bizlərin, yəni mətbəx əşyalarının hüquqlarının kobudcasına pozulması hesab edirəm və hər birinizi dibi qızıl olan mən qazanla birləşib haqqımızı tələb eləməyə çağırıram.

Yazıq, ömür boyu qazanın nəinki dibini, ağzını örtən qapağından savayı heç yerini görməyən qaşıq, çəngəl, bıçaq, boşqab və s. qazanın bu nisgilli danışığından feyziyab olub, istəyirlər onu alqışlasınlar, yumruqlarını göyə qaldırıb həmrəylik bildirsinlər, birdən mətbəxin küncündən asılmış çömçənin nazik səsi gəlir. Bütün mətbəx əşyaları çevrilib çömçəyə baxırlar. Çömçə lələ balaca qımışır, sora başlayır qazanın dediklərini alt-üst etməyə ki, bizim hər birimizin varlığımızın əsası, yəni missiyamız xörəklərin hazırlanmasında və insanların qarnının doyuzdurulmasında göstərdiyimiz xidmətdən ibarətdir. Yəni bizim missiyamız elə qazanın sadaladıqlarını eləməkdir ki, onları eləməsək, atılarıq zibil qablarına, orda da paslanıb, çürüyüb yox olarıq. Çömçə xeyli danışandan sonra üzünü tutur əşyalara ki, siz görməmisiniz, amma mən hər gün bu qazanın dibini gəzib, dolanıb, sora təmiz-təmiz yuyulub asılıram yerimdən. Onun dibi də elə dili kimi alüminiumdandı. Dibinin qızıl olduğuna sizi inandırmaq istəyir ki, guya o, qızılla özünə xilaskar dostlar tapacaq və bizi xilas edəcək. Dibinin qızıl olduğunu deyən bu qazana inanmayın. Başınızı salın aşağı, missiyanızı yerinə yetirin.Yoxsa zibilxanaya atılarsınız...

Bu yerdə nağılımız sona yetdi. Göydən də alma-filan düşmədi. Çünki alleqorik əsərlərdə almanın da ağlı olur və ağlı olan varlıq qazanın bu qədər yalanlar üyütdüyü məkana düşməz...

TƏRS BAXIŞ

# Əli Kərimlinin “dişi” Qurban Məmmədova “bata” bilmədi

*“Hüquq müdafiəçisi” hücumlarını davam etdirir*

***Artıq bir aya yaxındır ki, hazırda İngiltərədə yaşayan “hüquq müdafiəçisi” Qurban Məmmədovla vaxtilə təmsil olunduğu “Milli Şura” arasında kəskin qarşıdurmalar tam sürətlə davam edir. Xüsusilə, Q.Məmmədovun bu və ya digər faktları ortaya çıxararaq, əsasən, AXCP və “Milli Şura” rəhbərliyində təmsil olunanları, o cümlədən, Müsavat, eləcə də, digər ənənəvi müxalifət təşkilat rəhbərlərinə bir sıra həqiqətləri xatırlatması vəziyyətin gərgin qalmasına zəmin yaradır.***

### Vaxtilə Sərdar Cəlaloğlu qardaşı Qurban Məmmədovun həbsinin əsas baiskarı kimi Əli Kərimlinin olduğunu bəyan etmişdi

Bu arada, Q.Məmmədovun qardaşı, ADP-nin sədri Sərdar Cəlaloğlunun bir neçə il öncə, qardaşının həbsi ilə bağlı olayı şərh edərkən, həmin həbsin əsas baiskarının AXCP sədri Əli Kərimlinin olduğunu deməsini də xatırlatmaq yerinə düşərdi. Daha dəqiq desək, Q.Məmmədov ölkədə olarkən, yeni “Milli Şura”nın koordinasiya şurasında təmsil olunarkən, onun radikal çıxışları həbsi ilə nəticələndi. Məhz həmin ərəfədə S.Cəlaloğlu qardaşının həbs olunmasında günahkarın AXCP sədri olduğunu açıq-aydın



bildirmişdi. O cümlədən, bunu belə əsaslandırmışdı ki, Ə.Kərimli hakimiyyətlə siyasi mübarizədə normal müxalifətçilik etmir və düşmənçilik mövqeyi sərgiləyir. Onun düşmənçilik etməsi isə, ətrafındakı adamların həbs olunmaları ilə nəticəsini tapır.

Əslində, ADP sədrinin AXCP sədrini ittiham etməsi əsasındakı ittihamlarında həqiqətin olduğunu deyə bilərik. Daha doğrusu, hakimiyyətə qarşı siyasi mübarizənin çərçivədən çıxaraq, dövlət maraqları əleyhinə yönəlməsi bütün qanunilikləri həddini aşır. Belə olan halda, AXCP-”Milli Şura” cütlüyünün siyasi eyforiyasına qapılan Q.Məmmədov, nəticədə, radikalizmin qurbanına çevrilmişdi.

Məhz bu kimi hadisələrdən sonra radikal müxalifət “liderləri”nin iç üzlərini açan “hüquq müdafiəçisi”, bəlli olduğu kimi, ardıcıl hücumlara məruz qalmaqda davam edir. Sosial şəbəkələrdə ona qarşı öz trolları vasitəsi ilə söyüş kampaniyası başladan Ə.Kərimli, görünür, hələ bu prosesi davam etdirmək fikrindən geri çəkilmək düşüncəsində deyil. Ancaq hələlik, görünən budur ki, onun “dişi” Q.Məmmədova “batmır”.

Onu da, qeyd edək ki, Q.Məmmədov, demək olar ki, hər gün özünə məxsus “Azerifreedom” internet TV-si üzərindən canlı bağlantılara qoşulur, qarşı tərəfin hücumlarına qarşı öz müdafiə sistemini qurur. Bu isə, bütün mənalarda həmin savaşın davamlı xarakterdə qalacağı siqnallarını verir.

### Hələlik isə, Q.Məmmədovun “dişi”, başda Ə.Kərimli olmaqla, “Milli Şura”ya batır, özü də dərinə işləyir...

Maraqlı məqamlardan biri də ABŞ-da, Avropa ölkələrində oturub, “siyasi mübarizə” apardıqlarını iddia edənlər, məsələn, Sevinc Osmanqızı, Tural Sadıqlı, Orduxan Temurxan, Seyid Nuri, Namiq Feyziyev və başqaları Q.Məmmədovla savaşda elə də ciddi uğurlar əldə edə bilmirlər. Əksinə, “hüquq müdafiəçisi”nin ittihamları daha çox arqumentlərə əsaslanır. Çünki onun bu günə qədər səsləndirdiyi bütün iddiaları cavabsız qalıb və yalnız söyüşlərlə və təhqirlərlə müşahidə olunub. Buna isə cavab deyil, sadəcə, ictimai rəyi həqiqətdən yayındırmaq deyilə bilər.

Belə olan vəziyyətdə, sözügedən savaşın daha da dərinləşəcəyini bəri başdan proqnozlaşdıra biləcəyik. Hələlik isə, Q.Məmmədovun “dişi”, başda Ə.Kərimli olmaqla, “Milli Şura”ya batır, özü də dərinə işləyir...

**Rövşən RƏSULOV**



# Müxalifət qüruba doğru

RƏFİQƏ

***Deyəcəksiniz, hamı bilir ki, müxalifət artıq ölüdür və bundan sonra da düzəlməzlər. Doğru deyirsiniz, amma bunu anlaya bilirlərmi? 25 illik zaman müddətində düzəlməyən müxalifətin bundan sonra düzəlməsi, ümumiyyətlə, inandırıcı görünmür. Amma gəl-gör, bunlar bəri başdan hansı oyunlardan çıxırlar. İndi də başlayıblar, “liderlər” axtarışına. Bir tərəfdən, AXCP sədri Əli Kərimli, digər tərəfdən də, Müsavatın keçmiş başqanı İsa Qəmbər.***

Bir tərəfdən, Ə.Kərimlinin dirijor çubuğu ilə idarə olunan “Milli Şura” aksiya keçirmək fikrinə düşüb və aksiyasının uğurlu alınmayacağının fərqinə vararaq, oraya söyüş qoymaq vasitəsi ilə meydana insanları cəlb etməyə çalışır, digər tərəfdən də, sabiq başqan İ.Qəmbərin dirijor çubuğu ilə idarə olunan Müsavat partiyası özünü dağa-daşa çırpıb, zorla ictimai rəyə sırınmağa müxtəlif cəhdlər edir. Ancaq bu cəhdlərə baxmayaraq, biri o birinə dəymir, ikisi də heç birinə. Yəni köhnə hamam, köhnə tasdır. Fakt budur ki, hər ikisi qürub çağının son prosesini yaşamaqdadırlar. Artıq nə mitinq, nə piket, nə söyüş, nə alqış, nə də qarğış - heç biri bunların dadına-zadına çatan deyil.

## Abırları olsaydı...

Bəs, belə olan halda, siyasətdə qalmağa dəyərmi? Görünür, hissiyyatın nə olduğunu hələ bu günə kimi anlamayıblar. Anlasaydılar, Müsavatla AXCP-nin rəhbərliyi başda olmaqla, düşərgədəki naftalin iyi verən “liderlər” siyasətdə qürub çağının çatdığını qəbul edərdilər.

Amma fakt budur ki, “liderlər” indiyə kimi həyasızlıq nümayiş etdirməklə, guya xalqın “dərdinə şərik” olduqlarını nümayiş etdirirlər. Bu qədər həyasızlıq olar? Hansı xalqdan danışırlar, bax, bu, müəmmalı qalır. Axı bildiyimiz qədər, xalq onları 2003-cü ildən dəstəkləmir. Deməli, necə ki, xalq bunlardan imtina edibsə, özləri də özlərini xalqdan təcrid ediblər. Onda bunlar nəyi gözləyirlər? Niyə siyasətin bunlarıq olmadığını kişi kimi qəbul edib siyasi arenanı üzüsulu olaraq tərk etməyə cürətləri çatmır? Sözsüz ki, sualın cavabı çox bəsitdir. Ona görə ki, heç vaxt xalqı düşünməyiblər, əksinə, xalqdan öz şəxsi mənfəətləri üçün istifadə edərək, qrantlar, pul-paralar dalınca qaçıblar və bu qaçışla da “mühacir biznesi” qururlar, vəsiqə satırlar və s. Amma unudurlar ki, bunun da bir sonu var və bu sona qürub deyirlər. Az qalıb, artıq sizlər qürub çağındasınız...

# Müxalifətin “payız davası”

*Və ya liderlərin iddialarından qaynaqlanan ziddiyyətlər*

***Son günlər müxalifətdaxili qarşıdurmalar səngimək bilmir. Sözsüz ki, bu qarşıdurmaların baş verməsinin əsas səbəbi düşərgədə “liderlik” iddiası, şəxsi mənafedir. Dağıdıcı düşərgədə baş verən son olaylara diqqət yetirmək kifayətdir. Belə ki, son günlər “REAL” və ənənəvi müxalifət düşərgəsində təmsil olunan dağıdıcı siyasi qurumlar arasında kəskin qarşıdurmaların müşahidə olunması deyilənlərin təsdiqidir.***

“REAL”-ın icraçı katibi Natiq Cəfərli müxalifəti ötən əsrin 80-90-cı illərində ilişib qalmaqda, “azadlıq” və digər ənənəvi şüarların “devalvasiyaya uğratmaqda” ittiham edib. O, ənənəvi düşərgə təmsilçilərini köhnəçilikdə, düzgün siyasət aparmamaqda və xarici qüvvələrdən sifariş almaqda ittiham edib. Eyni zamanda, “REAL”-ın digər funksioneri Erkin Qədirli də müxalifətin təcrübəsiz olduğunu, “bəlkə də qaytardılar” xəyalı ilə yaşadıqlarını bildiriblər. Bu açıqlamadan dərhal sonra AXCP sədri Əli Kərimlinin söyüş qrupu və “like” (bəyənmə) edənlər qismində fəaliyyət göstərən adamları və Müsavatın quyruqbulayanları “REAL”-çılara qarşı hücuma keçərək, onları ən ağır formada aşağılamağa və təhqir etməyə başlayıblar.

### “REAL”-çılar Müsavat və AXCP-nin “söyüş qrupu”nu pozğun qadınlara bənzədir

“REAL”-ın idarə heyətinin üzvü Xalid Bağırov isə sosial şəbəkələrdə Müsavatı və AXCP-nin hücumçularını pozğun qadınlara bənzətməsi isə qarşıdurmanın ən pik həddə çatmasına səbəb olub.

Bu savaşın ardınca isə, Müsavat və “Ümid” partiyaları arasında qarşıdurma başlayıb. Belə ki, 2003-cü ildəki 15-16 oktyabr hadisələrinin 15 illiyi ilə bağlı Arif Hacılı ilə İqbal Ağazadənin “Meydan” TV-də canlı yayıma çıxmaları və bir-birini ən sərt səviyyədə ittiham etmələri, təhqir və söyüşlər demələri, qarşıdurmaları, hətta bir-birilərinə əl qaldırmalarına gətirib çıxarıb. Bunun ardınca məsələyə münasibət bildirən ADP sədri Sərdar Cəlaloğlunu, keçmiş müdafiə naziri Rəhim Qazıyevin onların ünvanına təhqiramiz sözlər deməsi, dağıdıcı düşərgədə, necə deyərlər, “aranı qarışdırıb, məzhəbi itirib”.

Göründüyüü kimi, layiq olmadıqları iddialar uğrunda söyüşən dağıdıcı müxalifətin payız “döyüşü” başlayıb, sonu isə, nə olacaq zaman göstərəcək.

### Tural Abbaslı: “Müxalifət artıq düşərgədaxili savaşa meyillənib”



Sözügedən məsələ ilə bağlı “AĞ” partiyanın sədri Tural Abbaslı bildirib ki, müxalifət artıq iqtidarla mübarizəyə deyil, düşərgədaxili savaşa meyillənib. T.Abbaslı müxalif partiyaların bir-birinə qarşı mübarizə aparmasının nə birinci, nə də sonuncu olduğunu söyləyib: “Azərbaycandakı hazırkı vəziyyəti və artıq 25 ilə yaxındır ki, uğursuzluğa düçar olduğunu nəzərə alsaq, bu, qətiyyən, qəbuledilməz bir haldır. Və nüfuzunu itirən müxalifətçilərin bir-birilərini təhqir etməsi isə, olmayan nüfuzlarını itirmək deməkdir. Əslində, düşünürəm ki, müxalifətdaxili bu ziddiyyətlərin əsl səbəbi partiya rəhbərlərinin keçmişdən bir-birilərinə qarşı olan neqativ münasibətlərinin davamıdır. İnanmıram ki, bu insanların bir-birilərinin şəxsiyyətlərinə etdikləri təhqirlər və yaxud nə zamansa, keçmişdə olmuş narazılıqları aradan qalxana qədər bu qarşıdurmalar səngisin. Odur ki, bəlkə də bu ziddiyyətlər və qarşıdurmaların açıq formaya keçməsi daha xeyirlidir. Qoyun, birdəfəlik öz aralarındakı məsələləri aydınlaşdırsınlar və xalq da bu proses əsnasında kimin haqlı, kimin haqsız olduğuna birdəfəlik özü qiymət versin. Bəlkə bu yolla artıq illərdir mübarizənin önündə tıxac rolu oynayan bəzi siyasilər səhnədən çəkilər”.

### Əli Orucov: “Hələ də qarşıdurmalar yaradan müxalif liderləri köhnəlmiş ənənələrdən və psixologiyadan qurtarmayıblar”

AMİP katibi Əli Orucov hesab edir ki, müxalifət daxilində müzakirələrin və debatların olması normaldır: “Bu debat və müzakirələrdə həm partiyaların görünməyən tərəfləri, həm də bir sıra məsələlər müəyyən qədər aydınlaşır. Siyasi rəqabət, eyni zamanda, inkişaf deməkdir. Lakin bütün bunlar da sivil qaydada etik normalar gözlənilməklə edilərdə, xoşdur. Biri digərini təhqir etməklə, aşağılamaqla sanki zövq alır və bunu özünə təsəlli sayır. Həyatın digər sahələrində olduğu kimi, siyasi və partiyalaşma sahəsində də bir inhisarçılıq mövcuddur. Köhnəlmiş ənənələrdən və psixologiyadan qurtarmayıblar. Kim onun kimi düşünmürsə, onun istədiyi kimi deyilsə, dərhal satqın damğası vurulur. Bunun bir səbəbi də normal mübarizə yollarının qapadılmasıdır. Əgər bu, olsaydı, partiyalar da belə dedi-qodulara, təhqirlərə yol verməndən sağlam siyasi rəqabətə üstünlük verərdilər. Hər bir siyasi qüvvənin özünün seçdiyi yol və yürütdüyü siyasi xətt var. Bəs biz niyə zaman-zaman siyasi plüralizm və tolerantlıq mühitinin yaradılmamasından narahat idik?! Sizin də gördüyünüz bəzi xoşagəlməz mənzərə, məhz belə cəmiyyətdə yaranır. Yəni bir çoxları dediklərinin və atdığı addımların məsuliyyətini anlamır. Bəzi siyasi qüvvələrin, görünür, heç özləri də sağlam siyasi rəqabətə hazır deyillər”.

**Rəfiqə HÜSEYNOVA**

# Şəxsiyyətin ləyaqəti və insan haqları

***Şəxsiyyətin bütöv psixoloji funksional sisteminin formalaşmasında və dəyərlərin psixoloji mənalandırılmasında ustanovkalar müstəsna dərəcədə böyük yer tutur. Qeyd olunmalıdır ki, insanın malik olduğu ustanovkalar sistemi mürəkkəb və çoxsəviyyəli xarakter daşıyır, onun strukturunda sabit (fiksasiya olunmuş) ustanovkalar sistemi, xüsusilə seçilir. Sonuncuların xarici təzahür forması şəxsiyyətin aksioloji funksiyasını ifadə edir. Qeyd edək ki, şəxsiyyətin strukturuna dair müasir fəlsəfi, sosial-psixoloji və psixoloji konsepsiyalarda bu barədə bir çox qiymətli fikir irəli sürülmüşdür.***

Onlara əsaslanmaqla şəxsiyyətin strukturunun aksioloji təbiətə malik olduğu haqqında qənaətə gəlmək olar. Şəxsiyyətin sözügedən strukturunun əsas elementlərinin məzmunu aşağıdakı anlayışlar vasitəsilə ifadə olunur: həyat, ölüm, azadlıq, sevgi, mənəvi borc, ləyaqət və s. Bu anlayışlar, həm də ona görə müstəsna rol oynayırlar ki, onlar şəxsiyyətin varlığının ilkin və əzəli konstantlarını təşkil edirlər.

Professor Məmməd Rzayev yazır: Onların bioloji kökləri həyat və ölüm haqqında instinktlərdə, öz növündən olan digər canlılar ilə birləşməyə edilən cəhdlərdə yerləşir. Lakin onlar bu vəziyyətdə hələ dəyərləri ifadə etmirlər. Sözügedən instinktlər yalnız insanın intensional davranışı və fəaliyyəti səviyyəsində əsl şəxsiyyət dəyərləri məzmunu kəsb edir. Belə ki, məhz bu mərhələdə onlar "Mən"in varlığını aşkara çıxarır, onu digərlərinin varlığından fərqləndirir, insanı öz həyatının məqsədi və mənasına dair axtarışlara sövq edirlər. İnsan yuxarıda qeyd olunan və digər bir sıra problemləri həll etməyə cəhd göstərmək yolunda fəaliyyətində şəxsiyyət dəyərləri sistemi əldə edir. Həmin sistemin əsas komponentləri həyat, ölüm, sevgi, azadlıq, mənəvi borc, məsuliyyət, ədalət, xoşbəxtlik, həyatın mənası kimi aksioloji funksiyalarda ifadə olunur. Şəxsiyyətin strukturunun bütün bu komponentləri (ünsürləri) fiksasiya ustanovkalar və aksioloji funksiyalar kimi çıxış etməklə, insanın sosial həyatının istehsalını və təkrar istehsalını təmin edir. Həmin aksioloji funksiyaların məzmununun koqnitiv və yaxud emosional xarakter daşımasından asılı olaraq, şəxsiyyətin intensional və davranış əsasları formalaşır". M.Rzayev dəyərlər sistemində insan ləyaqətini Şərq və Qərb mədəniyyəti üçün səciyyəvi hesab edir.

Tədqiqatçı Leyla İsgəndərova "İnsan hüquq və azadlıqları ümumbəşəri dəyərlər sistemində" adlı monoqrafiyasında yazır:

"Fəlsəfi ensiklopedik lüğət"ində göstərilir. İnsan hüquq və azadlıqları öz ifadəsini mükəmməl bir doktrinada tapır. Həmin doktrina, bütövlükdə, yeganə şübhə doğurmadan bir dəyərə əsaslanır. Bu dəyər insan ləyaqətidir.

"Ləyaqət" anlayışı çoxplanlı kateqoriyadır". Fəlsəfi nöqteyi-nəzərdən ləyaqət dedikdə, şəxsiyyətin nüfuzu haqqında təsəvvürü ifadə edən əxlaqi şüur anlayışı, etikanın insanın öz-özünə və cəmiyyətin fərdə əxlaqi münasibətini ifadə edən kateqoriya başa düşülür".

L.İsgəndərova qeyd edir ki, ləyaqəti yüksək olan insanın riyakarlığı və saxtakarlığı olmur, demişlər. Çünki saxtakarlıq insanın bütün yaxşı cəhətlərini bayağılaşdırır. Riyakarlıq insanı əhatə edənlər üçün nə qədər ağırdırsa, lovğa, yaxud xudpəsənd adamın özü üçün də bir o qədər əziyyətlidir. O, lovğalıqdan doğan mənasız təmtəraqla özünü üzərək, qayğılarının əzabkeşinə çevrilir. Hətta yüksək ləyaqətli insanlar özlərini təmtəraqlı göstərməklə, əslində, çox şeylərini itirmişlər. Belə vəziyyətdə həmin insanlara açıq və ya parlaq təbiətli şəxsiyyət kimi yox, qəsdən riyakarlıq edən, yaxud müxtəlif bicliklər işlədən fərd qismində baxırlar. Ləyaqətli insanlar sünilikdən həmişə uzaq olmuş və öz təbiilikləri ilə başqalarında xoş təəssüratlar yaratmışlar.

Öz şəxsi ləyaqətinin dərk edilməsi şəxsiyyətin öz-özünə nəzarət etməsinin elə formasıdır ki, fərdin özünə qarşı tələbkarlığı bu formaya əsaslanır. Cəmiyyətdən gələn tələbkarlıq spesifik şəxsi tələblər formasını kəsb edir və belə bir tezis təşəkkül tapır: "Elə hərəkət et, elə davran ki, öz ləyaqətini alçaltmayasan".

Müasir fəlsəfə insan ləyaqətini vicdanla yanaşı şəxsiyyətin cəmiyyət qarşısında mənəvi borcunu və məsuliyyətini dərk edib başa düşməsinin üsullarından biri kimi qiymətləndirir. Şəxsiyyətin ləyaqəti, həmçinin, ətrafdakı insanlar və bütövlükdə, cəmiyyət tərəfindən ona qarşı olan münasibəti tənzim edir, şəxsiyyətə hörmət, onun hüquqlarının tanınması və s. tələbləri özündə ehtiva edir. Hər iki halda, ləyaqət şəxsiyyətin sosial və əxlaqi azadlığının mühüm tərəfi kimi çıxış edir.

İnsan hüquqları konsepsiyasının banilərindən biri, fransız maarifçisi JJ.Russo belə güman edirdi ki, ləyaqət insanın özünün mahiyyətindədir. O yazırdı: "Öz azadlığından imtina etmək, deməli, öz insan ləyaqətindən, insan hüquqlarından, hətta öz vəzifələrindən imtina etmək deməkdir. Belə imtina insan təbiətilə bir yerə sığmazdır".

L.İsgəndərova yazır: "Təbii hüquq nəzəriyyəsində, insan hüquqları fəlsəfəsində insan ləyaqəti prezumpsiyası qüvvədədir. Bu insana və onun ləyaqətinə humanist yanaşmadır. Həmin humanist yanaşma İnsan Hüquqlarının Ümumi Bəyannaməsində də öz ifadəsini tapmışdır. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, bütün insanlar eyni bir bəşəri ailənin üzvləridir və onlar artıq ləyaqətli doğulurlar. Deməli, azad, bərabər doğulan insan, həm də ləyaqətli doğulur. Bəşəri ləyaqətdə hamı bərabərdir.

Ümumiyyətlə, dəfələrlə deyilmiş və yazılmışdır ki, insanlar ağıla və vicdana malikdirlər. Məhz buna görə də onlar bir-birinə qarşı qardaşlıq, ləyaqətə, digər insanın hüquq və azadlıqlarına hörmət ruhunda davranmalıdırlar. Belə yanaşmanın və hörmət göstərməsinin özü də insan ləyaqətinin nümayiş etdirilməsidir.

İdealist etika ləyaqətin mənbəyini şəxsiyyətin nə isə qeyri-sosial (ilahi, təbii, "xüsusi bəşəri") mahiyyətində axtarır və fərdin ləyaqətinin cəmiyyətin qanun, tələb və hüquqlarına qarşı qoyur. Feodalizm şəraitində ləyaqət, əsasən, silki şərəf formasında çıxış edir, kapitalizmdə isə həm də fərdin faktiki sinfi mənsubiyyətindən asılı olur. Yalnız sosial bərabərsizliyin məhvi ilə ləyaqət hər bir insanın əsl bərabər hüququna çevrilir, lakin bu hüquq həmin insanın sosial və əxlaqi inkişafı və şüurluluğundan asılı olaraq, onun özü tərəfindən fərdi qaydada bərqərar olur, eyni zamanda da, dərk edilir".

İnsan ləyaqəti insanın, vətəndaşın hüquq və azadlıqlarının zəminidir. Ləyaqət hüquq və azadlıqlar üçün etibarlı təməldir. Belə etibarlı təməl hüquq və azadlıqların realizəsi prosesində qarşılıqlı münasibətlərin yaranması, inkişafı və təkmilləşməsi üçün körpü rolunu oynayır. İnsanlar yalnız qarşılıqlı münasibətlər, ancaq birgə yaşayış vasitəsi ilə insan ləyaqətinin ifadəçisi ola bilərlər. Bu isə, o deməkdir ki, ləyaqət haqqında ancaq insan birgə yaşayışı şəraitində danışmaq mümkündür. Tənhalıqda həyat sürən hər hansı fərdin ləyaqətindən söz açmaq günəşli səhərdə səmada ulduz axtarmağa bənzər.

Bütün bunlarla yanaşı, ləyaqətin insanda formalaşması məqamlarını da nəzərə almaq zəruridir. Öz-özümüzə belə bir sualla müraciət etmək istərdik: şəxsi azadlığı olmayan, yaxud əlindən alınan, hüquqları addımbaşı tapdalanan insandan ləyaqət gözləmək və ya bunu ondan tələb etmək olarmı? Ümumiyyətlə, belə vəziyyətdə ləyaqət mövcud ola bilərmi?

Cavabımız birmənalı olacaq: ümumiyyətlə, azad, sərbəst olmayan insan öz ləyaqətinin və hisslərinin tapdalandığını hər an gözləri önünə gətirir. Unutmaq olmaz ki, sərbəstlik ləyaqətin, nəinki əsasını təşkil edir, həm də onu yüksəldir. Ümumiyyətlə, hər şeydə sərbəstlik zəruridir. İnsanın müxtəlif məziyyətləri onun təbiətinin, sərbəstlik isə məziyyətlərinin ziynətidir. Sərbəstlik əksər hallarda fitri olur, çox nadir hallarda isə, səylə əldə olunur. Sərbəstlik hər bir çətinlikdə məharət və incəliklə çıxır. Yalnız sərbəst və azad insan hər şeyə qadirdir.

L.İsgəndərovanın fikrincə, qarşılıqlı münasibətlərdə və ya dostluqda yüksək ləyaqət nümayiş etdirmək və ya özünü həddən artıq alicənab göstərmək kövrəklik əlaməti kimi qiymətləndirilməməlidir. Başqalarına hörmətlə yanaşmaq, təvazökarlıq və həssaslıq nümayiş etdirmək, hər şeydən əvvəl, özünü çətinliklər məngənəsində sıxlayan insanın yerində hiss etmək yüksək ləyaqətlilik nümunəsidir. Nə təkəbbür, nə ifrat dərəcədə özündən razılıq, yaxud özünü səxavətli göstərib, əslində, saxta nüfuz qazanmaq istəyən insanın belə keyfiyyətləri, heç bir halda, həqiqi təzahür edən ləyaqəti əvəz edə bilməz.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Təbii hüququn əsasını təşkil edən dəyər - bu, bəşəriyyəti təşkil edən bütün fərdin ruhlar çoxluğunun layiqli, daxilən müstəqil və zahirən azad həyatdır. Bu sözlər rus filosofu İ.İlyinə məxsusdur. Fikrimizcə, belə həyat subyektiv iddialı dairələrin ancaq dinc və mütəşəkkil müvazinətliliyi halında mümkündür. Dinc və mütəşəkkil tarazlıq insan ləyaqətinin təkmilləşməsinin mühüm amillərindən biridir. Məhz tarazlığın hamı və hər kəs üçün eyni imkanları təmin edir. Belə tarazlıqdan pozulması layiqli həyat tərzinə mənfi təsir göstərir, son həddə isə ədalətsizliklərə gətirib çıxarır.

L.İsgəndərova "Ləyaqət" anlayışını konkretləşdirərək yazır: "Obyektiv ümumbəşəri xarakteristikanı özündə ehtiva edən ləyaqətdən başqa, konkret insanların təbiətində təcəssüm olunan fərdiləşmiş ləyaqət də mövcuddur. Deməli, ləyaqət, bir tərəfdən, ümumbəşəri, digər tərəfdən isə, fərdi dəyər qismində qəbul olunur. İnsan hüquq və azadlıqlarının müdafiəsində ümumbəşəri dəyər olmaq etibarilə bəşəri ləyaqət üstün mövqeyə malikdir. Lakin nəzərə almaq zəruridir ki, ümumbəşəri dəyər qismində qiymətləndirilən ləyaqət, məhz fərdi ləyaqətlərin məcmusu əsasında bərqərar olmuşdur. Bu cəhətdən aşağıdakı iki aspektə diqqət yetirmək lazımdır:

1. Ləyaqət - bu, konkret insanın başqaları tərəfindən qiymətləndirilməsidir;

2. Ləyaqət - bu, subyektiv cəhətdən mənəvi özünüqiymətləndirmədir.

I. Konkret insanın onu əhatə edən digər insanlar tərəfindən qiymətləndirilməsi insan mənəviyyatına cəmiyyət tərəfindən verilmiş dəyərin təzahürüdür. Belə qiymətləndirmə prosesində insanın, demək olar ki, bütün əxlaqi keyfiyyətləri nəzərə alınır və həmin əxlaqi keyfiyyətlərə, adətən, aşağıdakılar daxildir:

a) insanın intellektual səviyyəsi;

b) insanın işgüzar keyfiyyətləri;

c) insanın məsuliyyət hiss etmək dərəcəsi;

ç) insanın özünü təkmilləşdirmə qabiliyyəti və s.

İnsanda sosial əhəmiyyətli əxlaqi keyfiyyətlərin sayı nə qədər çox olarsa, onun ləyaqəti də bir o qədər yüksək olar. Deməli, konkret insanın ləyaqətinin yüksəkliyi onun səyləri ilə birbaşa bağlıdır. Təbii olaraq, intellekti olmayan, sərsəri həyat tərzi keçirən və ictimai faydalı əməklə məşğul olmayan, öz hərəkət və davranışları üçün məsuliyyət hissi keçirməyən, habelə, öz üzərində işləməyən insandan, nəinki yüksək ləyaqət, ümumiyyətlə, ləyaqət gözləmək əbəsdir.

Bu qəbildən olan fərdlər, adətən, özünün başqa həmnövlərinin hüquq və azadlıqlarına hörmətlə yanaşmadan da uzaq olurlar. Şübhəsiz, ləyaqəti olmayan, yaxud aşağı olan insan, ilk növbədə, özünə hörmət etmədiyi üçün başqalarına da belə hörmət göstərməyi sanki özünə rəva görmür".

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

səs

Son səhifə 30 oktyabr

## Zeytun çəyirdəyi çox güclü antioksidantdır

Zeytun çəyirdəyi tərkibinə görə zeytun yağından daha zəngindir. Onun ortasında kərə yağına bənzər təbəqə mineral və vitamin mənbəyidir. AZƏRTAC bir sıra tibbi nəşr və mənbələrə istinadla xəbər verir ki, çox güclü antioksidant olan zeytun çəyirdəyi şiş xəstəliklərinin müalicə və profilaktikasında müsbət nəticə verir.

Gündə üç dəfə yeməkdən əvvəl üç ədəd zeytun çəyirdəyini udmaq mədə turşuluğunu aradan qaldırır, təxminən on gün sonra qastrit eroziyaları ilə əlaqədar olan ağrını azaldır, bağırsaq kolitlərində faydalı təsir göstərir, qəbizliyi və babasili müalicə edir. Yetişmiş, qaralmış zeytunlar toplanılaraq mətli hissəsi sürtkəc vasitəsilə ayrılır. Həmin hissəni sıxıb yağ əldə etmək, tumlarını isə qurudub saxlamaq olar. Udmazdan əvvəl zeytunun uc hissələri qayçı və ya kəlbətinlə qoparılır ki, boğaza və ya mədə-bağırsağa ilişib zərər verməsin. Qurumuş çəyirdəyin üyüdülmüş tozundan da istifadə etmək olar ki, nəticə olaraq bir ay sonra dəridə parlaqlıq yaranır. Bu toz eyni zamanda hormonal pozuntular, öd qatılığı və mədəaltı vəzidə olan iltihab prosesi zamanı çox faydalıdır.

Yetişmiş qara zeytunlar kəlbətinlə əzilərək iki kiloqramlıq balonun yarısına qədər doldurulur, üstünə balon dolana qədər alma sirkəsi əlavə edilir. Ağzı tənziflə bağlanaraq ən azı bir ay saxlanılır, sonra süzülür. Hazır məhsul şəkər xəstəliyi, yüksək təzyiq, qan-damar tıxaclaşması, yüksək xolesterin, piylənmə, infarkt, atroskleroz və digər xəstəliklərin müalicəsi üçün gündə üç dəfə yeməkdən sonra bir stəkan suya bir xörək qaşığı əlavə edilərək içilir.

## Alimlər: Bioloji yaşlanma doqquz əlamətlə müşayiət olunur

"Bioloji yaşlanma dövründə orqanizmdə yaxşıya doğru heç bir proses baş vermir". AZƏRTACBBC-yə istinadla xəbər verir ki, bu fikri İspaniyadakı Milli Onkoloji Araşdırmalar Mərkəzinin həkimi, yaşlanma əlamətləri üzrə tədqiqatlara dair hesabatların müəlliflərindən biri olan Manuel Serrano ifadə edib. Bu tədqiqatların nəticəsində məməli canlılar, o cümlədən insan orqanizmində yaşlanma prosesinin aşağıdakı doqquz əlaməti müəyyən olunub:

Birincisi, dezoksiribonuklein turşusu (DNT) - yeni hüceyrələr arasında əlaqə yaradan genetik kodumuz pozulmağa başlayır və xüsusi fəaliyyət üçün yaranan kök hüceyrələri də təsiri altına alır. Bu proses onkoloji xəstəliklərin meydana gəlməsinə səbəb olur.

İkinci əlamət xromosomların qapağı sayılan telomerlərin köhnəlməsi və onların zərər görməsidir. Bunun nəticəsində ağciyər fibrozu və aplastik anemiya təhlükəsi meydana gəlir. Hazırda alimlər bu prosesi ləngitmək üçün telomeraz adlı maddə üzərində iş aparırlar.

Üçüncü əlamət hüceyrələrin davranışlarının pozulması ilə bağlıdır. Bu prosesdə konkret olaraq bir hüceyrədəki minlərlə gen onun istiqamətini müəyyən edir. Məsələn, hüceyrənin dəri, yoxsa beyin hücrəsi olduğu təyin edilir. Lakin onların davranışının pozulması skleroz kimi xəstəliklərin ortaya çıxması ilə nəticələnir.

Dördüncü və beşinci əlamətlər hüceyrələrin özünüyeniləmə qabiliyyətinin azalması və metabolizm üzərində nəzarəti itirmələri ilə müşayiət olunur. Yaşlanma prosesində "ölən" hüceyrələrin yenilənməsi prosesi xeyli ləngiyir və onlarda toksik zülallar yığılmağa başlayır. Bu zəhərli maddələrin əksəriyyəti Altzheymer və Parkinson xəstəliklərinə səbəb olur. Digər tərəfdən, hüceyrələr yağ və şəkər kimi qidaları yetərincə mənimsəyə bilmədiyi üçün metabolizm qabiliyyəti azalır və şəkərli diabetin yaranması ehtimalı güclənir.

Daha bir - altıncı əlamət hüceyrələri enerji ilə təmin edən mitokondrilərin təsirinin azalması və bunun nəticəsində DNT-nin zərər görməsidir. "Nature" jurnalında dərc olunmuş bəzi tədqiqatların nəticələri göstərib ki, mitokondrilərin fəaliyyətinin bərpa edilməsi canlıların ömrünü uzadır.

Yeddinci əlamət hüceyrələrin "zombi"yə çevrilməsi - yəni onların digər qüsurlu hüceyrələrin meydana gəlməsinin qarşısını ala bilməməsi və qeyri-təbii hərəkətidir. Qüsurlu hüceyrələr parçalanmaya davam edir, lakin ölmür. "Senescent" deyilən bu hüceyrələr məhz yaşlanma əlamətidir. Hazırda genetika mühəndisləri onların aradan qaldırılması istiqamətində tədqiqatlar aparırlar.

Nəhayət, səkkizinci və son əlamətlər kök hüceyrələrin enerjisinin tükənməsi və onlar arasında əlaqənin yox olması ilə əlaqəlidir. Enerjinin azalması hüceyrələrin yenilənmə, koordinasiya imkanlarının da tədricən tükənməsinə səbəb olur. Serranonun sözlərinə görə, orqanizmin yaşlanması labüd olsa da, sağlam həyat tərzi bu prosesi ləngidə bilər.

## Elan

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təlim və tərbiyə ixtisası üzrə I kurs tələbəsi Mirzəzadə Aysel Hüseyin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Cüdoçularımız Əbu-Dabidə "Böyük dəbilqə" turnirində üç medal qazanıblar

Oktyabrın 29-da Əbu-Dabidə cüdo üzrə "Böyük dəbilqə" turnirinə yekun vurulub. Azərbaycan millisi turniri 1 gümüş və 2 bürünc medalla başa vurub. Belə ki, reytinq xarakterli turnirdə 100 kiloqram çəki dərəcəsində mübarizə aparan Elmar Qasımov özbəkistanlı Aklmurodbek Xudoyberdıevə, Rusiya təmsilçisi Ashad Kostoevə və Portuqaliya idmançısı Xorxe Fonsekə qalib gələrək finala yüksəlib. Həlledici görüşdə israilli cüdoçu Peter Palçikə məğlub olan E.Qasımov gümüş medalla kifayətlənib.

Millimizin üzvləri Məmmədəli Mehdiyev (90 kq) və İrina Kindzerskaya (78 kq-dan yuxarı) nüfuzlu turnirdə bürünc medal qazanıblar. Qeyd edək ki, turnirdə 64 ölkədən 400-dək cüdoçu birincilik uğrunda mübarizə aparıb.

## Qurban Qurbanov növbəti rekorda imza atıb



Futbol üzrə Azərbaycan milli komandasının və "Qarabağ" klubunun baş məşqçisi Qurban Qurbanov növbəti rekorda imza atıb. Belə ki, Azərbaycan Premyer Liqasının IX turunun "Neftçi" ilə qarşılaşması "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanovun ölkə çempionatlarında çalışdırıcı kimi 350-ci matçı olub.

Hesabında 206 qələbə və 83 heç-heçə olan 46 yaşlı mütəxəssis 1:3 hesablı yenilgi ilə 61-ci dəfə məğlubiyyət acısı yaşayıb. Onun yetirmələri Premyer Liqada 523 qol vurub, 244-ünü buraxıblar. Məşqçiliyə 2006/2007-ci il mövsümündə başlayan mütəxəssis karyerasında yalnız iki kluba rəhbərlik edib. Q.Qurbanov ilk oyununu "Neftçi"də keçirib. O, paytaxt təmsilçisini 28, "Qarabağ"ı 322 çempionat matçına çıxarıb.

## Messi: "Suaresin het-trik etməsinə sevindim"

"Barselona"nın hücumçusu Leonel Messi komandasının "El Klassiko"da qələbəsini şərh edib. SİA-nın məlumatına görə, argentinalı futbolçu komanda yoldaşlarının uğuruna sevindiyini deyib: "Əla oyun oldu. Suaresin het-trik etməsinə sevindim. "Nou Kamp"da "Barselona" fırtınası tüğyan etdi. Hamını təbrik edirəm".



Xatırladaq ki, argentinalı hücumçu 9-cu turda "Sevilya" ilə matçda zədələnib. Hələlik oyunlara qatılmır. Messi 9 oyunda meydana çıxıb, 7 qol vurub. O, həmçinin 5 məhsuldar ötürmə edib. Messi "Qol+ötürmə" sistemi üzrə birinci yeri tutur.

## Lyuis Hemilton 5-ci dəfə dünya çempionu olub



Mexiko avtodromunda Formula 1 Meksika Qran-Prisinə yekun vurulub. SİA-nın məlumatına görə, "Red Bull" komandasının pilotu Maks Ferstappen turnirin qalibi olub. Çempionatın lideri Lyuis Hamilton isə finiş xəttinə dördüncü çatıb və bu nəticə sayəsində mövsümün sonuna iki mərhələ qalmış çempion tutulunu qazana bilib. Bu, onun karyerasında 5-ci dünya çempionu tituludur. Sebastyan Fettel çempionatda vaxtından əvvəl ikinci yeri tuta bilib. Konstruktorlar Kubokunda "Mersedes" komandasının "Ferrari" üzərində üstünlüyü isə 55xal azalıb.

## PSJ-nin baş məşqçisi Mbappe və Robyonu cəzalandırıb

"Pari Sen-Jermen" futbol klubunun baş məşqçisi Tomas Tyxel hücumçu Kilian Mbappe və yarımmüdafiəçi Adrien Rabyoya intizam qaydalarına əməl etmədikləri üçün cəza tətbiq edib.



Footballhd.ru saytı yazır ki, hər iki oyunçu Fransa çempionatının 11-ci turu çərçivəsində "Marsel"lə matçda meydana əsas heyətdə yox, əvəzedicidə çıxıb. Mbappe matçın 62-ci dəqiqəsində meydana daxil olub və 3 dəqiqədən sonra qol vurub. Digəri isə yalnız 79-cu dəqiqədə meydana buraxılıb.

"Matçdan əvvəl oteldə intizam qaydalarını pozduqlarına görə qərara gəldik ki, hər iki futbolçunu əsas heyətdən çıxaraq. Çox təəssüf edirəm ki, belə xoşagəlməz hadisə ilə qarşılaşdıq. Onların meydanda olmaması xoşuma gəlmir, amma cəza tədbiri görülməli idi", - deyə baş məşqçi bildirib. Fransa KİV-lərinin verdiyi məlumata görə, Mbappe və Rabyo "Marsel"lə matç öncəsi keçirilən komanda iclasına gecikiblər. PSJ Fransa çempionatının 11 turundan sonra maksimum xal toplayaraq turnir cədvəlinə liderlik edir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**